Nurəngiz Gün

# TANRI BƏŞƏR ÖVLADIDIR

Sizə həsr edirəm, mənim Fatimələrim, Kozettalarım, Zoluşkalarım! Ruhunuza aramsız bir nəğmə oxuyuram bu gün sizin. Bu nəğmənin öz ahəngi, öz vüsəti var, mənim susqun, naçar balalarım! Bu nəğmə uşaqlıqdan məhrum dünyanızın, səadətə həsrət ürəklərinizin, titrək dodaqlarınızın, yorğun ayaqlarınızın şərəfinə oxunur, mənim qanadsız göyərçinlərim...



1979-cu ilin bir payız səhəri qatar tıqqatıqla irəliləyirdi. Cavan qadın iki günlük yolda bir an da olsa, gözünü yummamışdı. Nə düşünürdü bu qədər, nə idi onu narahat edən? Axtarsan, heç özü də bilmirdi ki, niyə belə həyəcanlıdı? Bəlkə, o yaralı xatirələr oyanmışdı qəlbində yenə? Yox! Çiyinləri artıq çoxdan boşalmışdı bu yükdən. İndi o, hardasa özünü xoşbəxt sanırdı.

Bu balaca, dar kupe ona elə geniş, elə işıqlı görünürdü ki, sanki başının üstündə sonsuz mavi səma vardı, bu mavi səmada mavi-mavi quşlar civildəşirdi. Ayaqlarının altında yamyaşıl otlar vardı, üstündə belədən-beləyə uçuşan böcəklər, kəpənəklər… Gözlərinin önündə isə ucsuz-bucaqsız sünbül tarlasının sarı-sarı buğda qılçıqları bir-birinə ilişib pıçıldaşırdı.

Kupenin qapısından o tərəfə vaqonun uzun, dar yolcuğu uzanırdı. Bu uzun-uzadı yolcuğun darısqal guşəsinə bir yekə, yupyumru günəş yerləşmişdi. “Bəlkə, günəş kainatın anasıdır? Ki, çoxluca sarı-narıncı tel-tel qollarıyla kainatı bərk-bərk qucaqlayıb qoruyur? Necə nəhəngdir Günəş? Nə qəribə rəng qarışığı var bu kəhrəba günəşin?”

…Qürub çağı yetişmişdi. Uzun günün gündüzünü par-par yanıb hamıya meydan oxuyan kəhrəba günəş artıq mürgüləyirdi. İndi o sapsarı, nəhəng Günəş qıpqırmızı balaca bir nara çevrilmişdi, üfüqdən aşağı yuvarlanırdı. Qadın onun qürub etməsinə heyrətlə baxırdı və bir qədər sonra onu gizli bir kədər hissi bürüdü.

Bir azdan Ay doğdu. Ay lap başının üstündəydi. Əlini atsaydı, az qala tutacaqdı bu gümüş qarışığını! Ayın gümüş telləri ona elə uzun, elə davamlı gəldi ki, az qaldı bu tellərdən yapışıb göylərə qalxsın.

Ona elə gəldi ki, ulduzlar duz dənələridir, kimsə onları duz gölündən qaşıyıb, ovuclarına alıb göyə səpələyib.

Günəş də yorulmuşdu. Ay da öz yuvasına çəkilirdi, ulduzlar da utanmışdı onlara dikilən bu bir cüt mavi gözün vurğunluğundan.

Amma bu qadın bu dar-darısqal vaqonun balaca pəncərəsindən, onunçun sanki təzə ənginlik açacaq dünyasından üz döndərə bilmirdi. Uzun gecəni yatmamışdı o... və…

Və bir də qadının kupesinə bitişik kupenin açıq qapısının ağzında durub bu “qəribə qadını” izləməkdən yorulmayan bir oğlan. Vaqonun sərnişinləri çoxdan qapılarını çəkib yatmışdı. Bircə o oğlan! Fikirləşirdi: “Sübhədək oyaq qalıb pəncərəyə yapışan bu qadının ayaqları yorulmadımı? Niyə onun üzünə qəribə-qəribə ifadələr qonur və tez də yox olub gedir? Niyə o heç kimi görmür, heç kimi hiss etmir. Axı bayaqdan mən onun yanından neçə dəfə keçmişəm!..”

Qarşıdan ötən bir uzun qatarın vaqonları arasından qadının üzündə şölələnən qıpqırmızı od rəngli işıq oğlana imkan verdi ki, onun gözlərini görsün. Qadının gözləri çox-çox uzaqlarda qalmışdı. Ürək edib yaxınlaşdı. Ehtiyatla:

– Bəlkə, sizə kömək lazımdır?

– …

– Deyirəm, helə-belə, bəlkə, bir kömək-zad lazımdır?

– …

– Mənə elə gəldi ki, sizə nədəsə kömək etmək lazımdır.

Qadın öz dünyasına qapılıb qalmışdı. O heç nə eşitmirdi. Oğlan özünü bir qədər itirmişdi. Dedi:

– Bilirsiniz, inciməyin, siz çox “qəribə adam” təsiri bağışlayırsız. Bir də nə üçünsə məni çox düşündürürsünüz.

Qadın yenə də susmuşdu. Onun bu susqunluğu oğlanı lap çaşdırdı.

– Məni düz başa düşün. Helə-belə, nə üçünsə… Qəribə görsənsəniz də, elə bil siz nə isə yaxşı adamsınız axı!

Qadın yalnız indi aldı bu sözləri və xətrinə dəymiş kimi çox biganə:

– Təşəkkür edirəm. Ancaq qəribədir, bilmirəm siz qəribəsiniz, ya mən? – deyə cavab verdi.

– Görünür, biz hər ikimiz qəribəyik, – deyə oğlan çox ehtiyatla cavab verdi.

– Onda biz bir-birimizi yaxşı başa düşə bilərik. Elə deyilmi?

– Şübhəsiz!

– Elə isə məni rahat buraxın. Mənim özözümlə qalmağıma imkan yaradın.

Qəribə baxışlı bu “qəribə oğlan”ın baxışları, qəribə baxışlı bu “qəribə qadın”ın ardınca ilişib qaldı. Kupe qapısı içəridən kilidləndi. Bir neçə an bundan əvvəl gedən o qısaca söhbət də qapıdan o tərəfdə qaldı.

Qatar gedirdi, sürətini yaman artırmışdı. Sübhə az qalırdı. Qadın yatmamışdı. Bu axşam üfüqdən aşağı ötürdüyü kəhrəba günəşi gözləyirdi. Üfüq qızardı, amma günəş boylanmadı. Bir topa qara bulud ötdü, pəncərəni yağış döyəclədi.

Qadın birdən-birə diksinən kimi oldu və bayaqdan bəri gözlərinə hədəf tutduğu nöqtəni azad etdi, dərindən köks ötürüb yorğun baxışlarını pəncərədən çəkdi.

Kupenin o biri taxtasında balaca bir varlıq yatmışdı. O, ciyərparası idi qadının. Yeganə övladı. Qız uşağıydı. Kupenin isti, boğuq havasının ağırlığından çırmalayıb kənara atdığı yorğanı yerə düşmüşdü. Əyilib götürdü, yenidən üstünə sərdi, astaca alnından öpdü, sonra da azacıq açıq qalan pəncərəni bərk-bərk örtdü.

Yağış yaman şiddətlənmişdi. Yaxşı tapıblar onun adını, şıdırğı! Düzdü, şıdırğı yağırdı. "Bu yağışı adam içə bilər, bu yağışı adam qucaqlayıb öpə bilər, bu yağışa adam pıçhapıçla ürəyini aça bilər, bu yağışda adam lap lüt soyuna bilər, bu yağışda adam yuyuna bilər, lap o yan-bu yana qaça bilər…"

"Amma… a! Adamlar! Onlar cürbəcürdürlər. Biri sənə dəli deyəcək, biri sənə… biri sənə… biri də sənə, bəlkə də… Eh, daha nə bilim, nələr deyəcək".

Qadın birdən lap irəliləri düşündü. Düşündü ki, onun da atası, anası vardı, onun da uşaqlıq illəri vardı. Və bir dəfə Pirşağıdakı bağlarında atasına demişdi ki, bəs:

– Ata, bilirsən ürəyim nə istəyir?

– Nə istəyirsən, gülüm?

– Ata, gülməzsən ki?

– Yox…

– Ata, mən istəyirəm ki, bax, o pişiyi görürsən? Hə, bax, mən elə lap o pişiyin yanında, elə elənçiy, bax, o pişik uzanan kimi uzanım.

Pişik, sən demə, gedib küçənin tən ortasında, qumlu, tozlu bir yolda, arxası üstə, qolları, qıçları azad-azadyana torpağa sərili, heç kimi, heç nəyi eyninə almadan özünü eninə-uzununa günə verirmiş. Və, sən demə, Tanrıca çağırılan (onun adı Tanrı idi, elə-belə, evdə və eşikdə. Əsl adı isə… ) bu balaca qız da bir vaxt belə iştahla yaşayıb və beləcə bir arzuda olub.

– Yox, göz bəbəyim! Sən mənim gülümsən axı, laləm, nərgizim, bənövşəmsən. Belə incə güllərin o toz-torpaqda nə işi var? Görən nə deyər? Deyərlər ki, Tanrı dəlisovdur, başdan o sözdür…

– Bəs pişiyə niyə deməzlər?

– Çünki o, pişikdir, sən isə insan.

– Deməli, pişik biz insanlardan azaddır?

– Sən nə çox danışırsan? Hələ uşaqsan, belə şeylərə baş qoşmasan, yaxşıdır, – deyə ata bir vaxt cavab tapıb verə bilməmişdi bu balaca "filosofuna..."

– "Uşaqsan!" Ata bilmirdi ki, bu altı yaşlı qızcığaz heç onda da uşaq deyildi. Ata bilmirdi ki, bu uşağın başı, beyni hər gün dünyanın işləri ilə necə dolub-boşalır, bu uşağın ürəyi yupyumşaqdır, kövrəkdən də kövrəkdi. Ata hələ onun kiminçünsə gecələri yorğanı başına çəkərək gizli-gizli ağlayıb göz yaşı tökdüyünü, özgələrin kədərini bölmək qabiliyyətini heç görüb duymamışdı da əməlli-başlı. Belə olmasaydı…

Bir Novruz bayramı…

Bir Novruz bayramı dalanlarının dibində yaşayan Qızxanım arvadla yetim nəvəsi cuqqulu Rəna dünyalarca sevinmişdi.

Bayram axşamı ona və nənəsi Qızxanım arvada çoxlu şəkərbura, paxlava, qovurğa, ləbləbi, iki yaşıl şam, iki qırmızı yumurta, hər şey, hər şey, hətta üstəlik bir qırmızı güllü markizet paltar da gəlmişdi. Sevinmişdi cuqqulu Rəna, Tanrıcanın belə adlandırdığı, öz yaşıdı cuqqulu Rəna.

Axırıncı çərşənbə günü dayəsi Yasəmən xala ilə hamama gedirlər. Tanrıca yaman Tanrıca idi. Oddu, alovdu, dəlisovdu. Amma hərdən belə də deyirdilər: "Key Tanrı", "Gic Tanrı"… Çünki qeyri-adi təbiətli uşaq idi bu Tanrı.

Hə, hamamda haray-həşir salır ki, bəs paltarımı oğurlayıblar. Sən demə, bu paltarını Yasəmən xalanın uzun, enlibalaq tumanına elə fəndlə sancaqlayır ki, arvadın heç ruhu belə incimir. Özü isə uydurduğuna inanırmış kimi qaşqabağını tökmüş halda deyir: "İşə bax ha, balaca bir uşağın da paltarını oğurlarmışlar! Ay yəyə, (O, Yasəmən xalasını "yəyə" çağırardı) söy də. De ki, əli qurusun helə onu götürənin".

Yasəmən xala dünyada hansı sözü təmiz söyləyə bilsəydi, "cəhənnəmə" ilə "zdrastvuyte" sözlərini heç vaxt düz tələffüz eləyə bilməzdi. İndi də eləcə:

– İzdrastı! İndi neyniyək! Özümüzü öldürək? Cəhəndəmə oğurlayıblar. Buna bax e! Qız, nə eşələnirsən özgənin bor-boxçasında? İtib, itib də. Al geyin görüm bu soxanı. Hə, indi başını gəti bura görüm! – deyib qızın başını ləçəklə bağlaya-bağlaya donquldandı:

– Şükür, nə yaxşı başını itirməmisən. Sənin əlindən cana gəlmişəm. Al görüm bu qətfəni. Yaş da olsa, bürü özünə. Daha belə yarıçılpaq getməyəcəksən ki küçəni. Yoxsa biz də moltanı-zad olmuşuq? Nə var, qaşqabağını tökmüsən? Gəl bura görüm! Bəlasan, bəla!

Yasəmən arvad yaş qətfəni Tanrının çiyinlərindən aşağı salladı. Yollandılar evə sarı. Budur, üstünə saldığı ağ qətfəsi çiynindən ayaqlarına qədər yerlə sürünür. Yaylığı başına lap molla əmmaməsi kimi sarınıb. Özünü itirdiyindən səndəllərini də tərsəməssəm geymişdi. İndi küçəni şəstlə gedir, hiyləsinin baş tutduğuna sevinirdi. Küçədə adamlar olduğunu unutmuşdu, elə hey dişləri ağarırdı. Elə bil bir qırmızı əmmaməli, ağ cübbəli, balacaboy bir molla peyda olmuşdu və bu balaca molla başdan da bir az səydir. Yamanca gülməli görkəmi vardı. Hətta hamı ona mat-məəttəl baxır və arabir də gülürdülər. Məhəllə uşaqlarından da biri "gic gəlir" – deyib əkildi.

"Gic Tanrıca" səhərisi gün "oğurlanan" həmin o qırmızı güllü təzə markizet donunu və bayram payını cuqqulu Rənasına aparmış və özünü ondan çox-çox yaşlı və ağıllı göstərərək demişdi:

– Bayramın da mübarək! Neçə belə illərə çıxasan nənənnən. İl də siçan üstə təhvil olur. Deyirlər, siçanlar oğru olurlar. Bura bax, elə bilmə ki, mən oğruyam, ha. Anam özü verdi ki, apar Rənaya. Bayramdır axı...

Bəlkə də, anası bunu edəcəkdi, çünki Tanrıcaya bu cür qəlbi anası özü bağışlamışdı... Amma Tanrı! Tanrı yaman Tanrı idi, "gic Tanrı" idi. Nə üçünsə bir dəfə də…

Bir dəfə də "bic Tanrı" çağırdılar onu. Qapıbir qonşusu yetim Qrişanı analığı Marusya ölüncə döyüb əldən salarkən onu aradan elə çıxarmış, üç gün, üç gecə özlərinin toyuq hinində elə yedirib-içirdib saxlamışdı ki, bunu nə evdəkilər, nə də "Mürdəşir Marusya" bilmişdi. Marusyaya Mürdəşir adını Tanrıca özü qoymuşdu və bütün qonşular onu elə beləcə "Mürdəşir Marusya" çağırırdılar.

Bir az sonra Qrişa uşaq evinə verildi. Və daha sonra hamı bildi ki, bu, yalnız Tanrıcanın təşəbbüsü idi.

Qadının beləcə, bu cür çoxlu uşaqlıq xatirələri vardı, nədənsə, qadın onlara toxuna bilmirdi, kövrəlirdi bəxtəvər uşaqlıq illərinə qayıdanda...

Qatar ötdükcə qadının fikirləri də ötüb keçirdi. Sürətini artıran qatarın pəncərəsindən o tərəfdə geniş bir çöllü-biyabanda ayaqları qırmızı kərpicli tənha bir ev qızardı və tez də axıb arxada qaldı. Birdən qadın bir uşaq dəcəlliyiylə boylandı və həmin o qırmızı kərpicli evin arxasınca bir də baxdı. Evin darvazasından çinar ağacı kimi uzun bir arvad çıxdı, toyuqları kişləyib qabağına qatdı, sonra uzaqlarda əriyib bir nöqtə oldu.

Bu dünyada bir qırmızı kərpicli ev də vardı. Bağçası şaftalı çiçəkli, şəbgüllü, qərənfilli ev! Uşaqlıq dünyasından yaddaşında həkk olunub qalmış ən nəhəng xatirəydi ki, gözlərini yaşartdı. Görən, indiyədək xəyal dolaşığından ilişib qalmış o balaca qırmızı kərpicli ev yenə eləcə dururmu? Tərtəmiz, ülvi bir məhəbbətlə isinib sığındığı "nənə", "nənəli" çağırdığı bibisi yenə elə yumşaq, uyğulu, şirin nağıllıdırmı? Yaxşıdan da yaxşı Cahan nənə qocalıb əldən düşməyib ki? Qıcılı, Kifi, Tamella, Süsən, yəqin ki, xoşbəxt bir ailə qurublar, çoxluca da balaları var. Qırmızı kərpicli evin bağçasındakı güllər adamların üzünə hər səhər yenədəmi şehli-şehli gülümsəyirlər?

Meşəyə ona-buna oduna gedən, ona tez-tez hındıl[1] yığıb gətirən, ərsiz Cəmilənin oğlu "Dəli Dadaş" taleyin hansı səmtində ilişib qaldı, görən?

"Dəli Dadaş"ın sərgüzəşti nə böyük yük olmuşdu qadına bu qırmızı kərpicli evin xatirəsiylə birlikdə? "Dəli Dadaş" istəyirdi ki, artist olsun, gülsün, güldürsün, çalıb-çağırsın, lap elə qışqırsın, bağırsın, desin ki, mən odun yığmaqdan təngə gəlmişəm, axı mən tək bunu bacarmıram, istedadım var. Sevə də bilirəm. Lap bərk sevirəm, bu sevginin əsirliyindən heç gecələri də yata bilmirəm. Amma qorxuram, insanlar, qorxuram, bütün ürəyimdəkiləri açıqca söyləməyə qorxuram!..

Amma bir dəfə qorxmamışdı həmən bu "Dəli Dadaş"… Aşıb-daşan hisslərini göyə yağdırmışdı, göyə. Ağzını göyə açıb qışqırmışdı: "Tikanlı, ilanlı kollardan əllərimlə bircə-bircə yığıb gətirdiyim hındılları o qıza uzadanda da qorxuram, əllərim əsir, ürəyim gizildəyir. Bu nədir, ay Allah, bəlkə, sən kömək edəsən?"

Onda həmin o qırmızı kərpicli evin böyrünə yapışıq həyətdən boy verən alçaq damlı evdən uzun, qara hörükləri qulac-qulac cavan Cəmilə bacı çıxmışdı ki, həmən o ərsiz Cəmilə və həmən o lığdan və palçıqdan hörülmə evinin yeganə

[1]Hındıl - böyürtkən

kişisi – bığ yeri təzətər Dadaşbalasının yaşına uyuşmayan enli, cüssəli kürəklərini hər iki qollarıyla qucaqlamış, evlərinə aparmışdı. Və çox güman, yol boyu bu sözləri tövsiyə etmişdi: “Ayıbdır, adamlardan ayıbdır. Belə etmək olmaz, balam, gözəl – göyçək balam! Unutma ki, atasızsan, sənin hər hərəkətin söz olar. Sus, bir kərəmlik sus, o artistliyi-martistliyi də ürəyindən çıxar. Yetim əlində çörək əcaib olar, bala! Başını aşağı sal, odununu yığ, güzərimizi[2] keçirək. Qoy el-oba bizə gülməsin. Olmaz, hər şeyi etmək olmaz, özündən yuxarı pillədə dayananlara aşiq olmaq da olmaz. Olmaz, olmaz!”

Çox güman ki, yol boyu ona bu sözləri tövsiyə edərkən, şübhəsiz, Cəmilənin uzun barmaqlı göyərçin əlləri bir-birinin ardınca Dadaşın ağzını bərk-bərk qapamışdı. Və burası da lap yəqin belə olmuşdu ki, Dadaş yenə də anasının əllərini qapanmış ağzından kənara itələmiş və qışqırmışdı:

– Bəs niyə o şəhərdən gələn həmən o qısa tumanlı qız səhərdən axşama kimi hoqqa çıxarır, söz eləmirlər? Bir yekə payanı qoyub çiyninə atılhaatıl fırlanır bu aralıqda. Bibisinin həyətində ağac qoymayıb təpəsinə dırmanıb oxumadığı. Cırcırama kimi cır-cır cırıldayır. Özünü göstərir?

Lap yəqin Dadaş bu sözləri demişdi, qışqıra-qışqıra demişdi. Elə bil ta qədimlərdən qadının qulaqlarında ilişib qalmışdı bu sözlər. Bir incə qadın səsi də axıb qalmışdı qulaqlarında: “Neynək-neynək, oğlum, uşaqdı da. Təbiəti elədir. Amma məbadə, məbadə ona “gic Tanrı” deyəsən ha!”

“Gic Tanrı!” Bu “gic Tanrı” hər il bu yerlərə yay istirahətinə gələrdi. Bibisigilə, ağ güllü, çit çarşablı bibisigilə. Xanbikə arvada qovuşandan ta ayrılanadək ondan əl çəkməzdi. Bibisi bu balaca qızcığaz üçün hamıdan ağıllıydı, sığallıydı, nağıllıydı. Yalançıydımı, doğruçuydumu? Bibisinin bir “Hadı-Bıdı” nağılına qarnı ağrıyıb, ürəyi gedincəyədək gülər, axıb gedərdi. Nağıllıydı bibisi, əzizdi, doğmaydı. Ancaq arabir küsüşmələri də olardı sevimli bibisiylə. Ona son dərəcə ülvi və təmiz görünən bu bibi, görən, niyə ev qulluqçusu Xoşqədəmi bu qədər danlardı? Və anlaya bilməzdi ki, niyə o yekəlikdə Xoşqədəm evin dalında oturaraq dizlərini qucaqlayıb sakit-sakit ağlayırdı? Və niyə Xoşqədəm günlərin bir günü “meşəyə” qaçdı? “Hə, niyə qaçdı?”, “Hə, niyə qaçdı?”, “Hə, niyə qaçdı?”, “Hə, niyə qaçdı?”

[2] Güzər – gün-güzəran



Qatar qarşısında böyük bir qala olan dayanacaqda bir irəliyə, bir arxaya doğru dartınıb dayandı. Qadın yuxudan ayılmış kimi balasını xatırladı. Uşaq dünyanın işlərindən xəbərsiz-ətərsiz yatmışdı.

– Vay səni, Nilu! Çatmışıq ki! Dur geyin, gözümün işığı. Heç bizi qarşılamağa gələn yoxdur ki. Birdən bura olmaz ha, vay səni! – deyə qadın narahat-narahat şeylərini yığışdırdı.

Kupenin qapısı ağzında bu qadın haqqında “qəribə” fikirləşən həmən o “qəribə oğlan” dayanmışdı. Dedi:

– Bağışlayın, sizə yox, çamadanınıza kömək etmək istəyirəm.

– Etiraz etməzdim, ancaq yüküm çox yüngüldü mənim… Zəhmət çəkməyinə dəyməz.

– Mən də etiraz etmirəm, elə olsun. Ancaq bilirsiniz… Bilirsiniz… Bilin, siz mənim yaddaşımda yamanca ilişib qalacaqsınız.

Qadın yalnız indi oğlanın səliqəylə daranmış şabalıdı sıx saçlarını, şabalıdı gözlərini, nazik, düz biçimli, sivri burnunu, yaraşıqlı çənəsini gördü. Arıq, düz çiyinləri lap paltar asılqanını xatırlatdı. Uzun qamətinin uzun qolları qadının çamadanına tərəf uzanıb havada ox kimi tarım qalmışdılar. Yəqin ki, qadın onu bir daha görməyəcəkdi və heç zaman bilməyəcəkdi ki, bəs bu adam kim idi,

nəçiydi. Və yalnız beləcə, uzun qolları uzun-uzun uzanılı xatirində ilişib qalacaqdı, bəlkə də…

– Xoşca qalın, sağlıqla qalın.

– Təşəkkür edirəm, salamat olun!

Vaqon pillələrini aşağı endilər. Yox, onları qarşılamağa gəlmişdilər. Uzaqdan üzlərinə gülümsünə-gülümsünə irəliləyən iki kişi xeylağı, güman ki, onlar idi, qohumları. Yanlarında da balaca, çəlimsiz bir qız uşağı. Hə, bu kişi, yəqin, illərdən bəri adını eşidib, üzünü görmədiyi bibisi qızı Zərnişanın əri Paşa idi. Bu arıq, uzun kişi də, deyəsən, bibisi oğlu Sahir idi ki, xeyli dəyişmişdisə də, onu tanıdı. Bəs bu bir qarış qız kimdir?

– Maşallah, Nilufər böyük qız olub. Görürsən bunları, Paşa, lap yaddan çıxarıb gediblər bizləri... Sevincək, dil-dil ötən bibisi oğluydu qadının və öz şadlığını ardı-arası kəsilmədən izhar edirdi:

– Gərək bağışlayasan bizi, ay dayıqızı. Allah rəhmət eləsin atana da, anana da, ancaq vallah, bu güzaran dərdi qoymur ki adam bir-birindən hal-əhval tuta.

İnsafən qadının anası həmişə yaxşı danışardı həmən bu bibioğludan. Deyərdi ki, balaları üçün canını verər, gecə-gündüz işləyər, anası və bacısının dövlətindən ummaz, kasıb-kasıbyana, öz əlinin zəhmətiylə səkkiz uşağını böyüdər. Di gəl ki, bəzi şeylərə susar, göz yumar…

O birisi? Qadın yəqin etdi ki, bu, doğrudan da, bibisi qızı Zərnişanın əridir, belə təkəbbürlə, ədayla irəlidə gedir. Eşitmişdi onun haqqında, amma üzünü görməmişdi.

Lap arxada gələn, onlara çatmağa cəhd göstərən, arıq bədəni üzərindəki yupyumru başını qəhvəyi rəngli ləçəklə bərk-bərk sarıyan bu balaca qız isə hələ də sual işarəsiydi qadın üçün. Qadın bunu da sezdi ki, bu qız bu kişilərin heç də övladı-filanı deyil. Başından bu fikir də keçdi ki, doğmalar doğmalarının ayağına daş dəyməyinə heç vəchlə dözə bilməzlər. Vay, bu arıq, çəlimsiz qız özündən yekə ağır yüklü çamadanı necə götürür? Vay səni! Bəs bu kişilər qollarını ata-ata niyə belə biganə gedirlər?

– Gəl, tez-tez gəl, ayaqlaruvun altında yumurta-zad qalmayıb! Dönüb arxasına baxan Paşa, deyəsən, bu balaca qıza acıqlanırdı və bir az sonra yenə elə boğuq və tox bir səslə: – Əşşi, mən gecikirəm. Bir az tez olun, atamın idarəsi deyil ki, buraxım başdı-başına, – dedi.

Bibioğlu:

– Gəlir, gəlir, sən keyfüvü pozma hər şeyçün, yeznə… Hə, qızım, ver o çamadanı götürüm, görürəm gedə bilmirsən. Ver, ver, qızım.

– Əşşi, mazgimi aparma, sən özün gəl, o ayağnan da gəlib çıxa bilər. Qohumlarına da de ki, bura şəhər deyil, naz eləsinlər, qoy tez-tez gəlsinlər. Bu gün mal təhvil almalıyam, başa düşürsən?

Gecədən yağan yağış yolları oymuş, xırdaca nohurlar əmələ gəlmişdi. Qabaqda palçığa batılı “QAZ-24” markalı maşın dayanmışdı. Ədalı yeznə, bibioğlu, hər iki əli məşğul, çəlimsiz bu qız, Nilufər və qadın maşına əyləşdilər.

Oturacağına mil-mil çay süfrəsinə oxşar parçadan örtük çəkilən maşın çox rahat idi. Gur səsli maqnitofondan “BONİ-M”-in səsi guruldayırdı. Balaca, əl parçası boyda asılma güzgünün üstünə bir dəstə qurumuş çöl tikanı taxılmışdı, altından da rezin saplı oyuncaq meymun özüyçün dartılıb-yığılırdı. Arxa şüşəyə bir-iki lüt-müt qadın şəkilləri yapışdırılmışdı. Paşa ətli əlini toppuza oxşar bəzəkli yumrusu olan əyləcə atdı, atmağıyla da maşının yola düşməsi bir oldu.

İndi qadının gözləri böyük ehtirasla kəndin küçələrini seyr edir, o qəribə aləmi bir də görməyə tələsirdi. Heç vaxt xəyalından çəkilməyən, başlarında iri donqarlı şal, üstündə zənbil gəzdirən arvadlar gözlərinə görünmürdü. Niyə qadın ancaq onları xatırlayırdı? Ağ güllü, çit çarşablı arvadları unutmuşdumu? “Bibim də belə geyinərdi, ağ güllü çit çarşablı, çəhrayı nəleyinli[3] bibim!”

– Bibioğlu, Sahirim! – nəhayət, qadın səsini çıxartdı və sanki indicə görüşürlərmiş kimi, həmişə “Sahirim” deyə çağırdığı əziz bibioğlusunu indi rahatca öpdü və gözlərini özününkünə oxşayan saçlarında, iri göy gözlərində gəzdirdi: – Bir-birimizdən illərlə xəbər tutmasaq da, bu yerlərdən küsə  bilmədim axı! Evimiz eləcə dururmu? Bibim qocalmayıb ki? – dedi və köks ötürdü. Qeyri- ixtiyarı bu sözlər də çıxdı dilindən: – Ona qurban olum! Arayıb-axtarmasa da bizi, bütün bu illəri mən onu unuda bilmədim axı! Eybi yoxdur, bibidir. İncimişəm sizdən, Sahirim, incimişəm! Amma mən bu torpaqdan heç vaxt üz döndərə bilmərəm. Atamın iyini bu yerlərdən alıram, – gözləri doldu və tez əlavə etdi:

– Sən mənə fikir vermə, bu, həsrətdəndir. De görüm, yenə də bibim o ağ güllü, çit çarşablı, çəhrayı nəleyinlidirmi?

[3] Nəleyin - başmaq

– Rəhmətliyin qızı! İndi belə şeylər nə gəzir bizim yerlərdə? Səni, məni bəyənməzlər, balam, yatmısan. Baş açıq, diz açıq, göz açıq! Hi-hi… Geydikləri də velyurdur, mokri zamşadır. Boyunqulaqların da görəcəksən, – deyə bayaqdan bəri özünü tox tutmuş Paşanın qadınla ilk söhbəti belə başladı.

– Olsun, olsun! Hamı firavan yaşasın!

– Sözsüz, elədir. Əşi, iş tək geyimdə-meyimdə deyil e! Ətdi, süddü, yağdı, meyvədi, it də yeyir, qurd da! Gərək çalışasan ki, səni heç kim keçməyə. Söz məsəli, daş-qaşun olsun, altunüstün dolu olsun. Belə sən ağzını açıb baxmayasan e həsədlə. Gərək bacarıb özüvə baxdırasan! Başa düşdün, bacım? Kişi gərək özün oda-közə vura! Yoxsa sənin bu bibioğlun kimi? Səhər cızır, axşam cızır, içindən də bir qoz çıxmır. Dükanlarda da kağız-mağız qalmayıb ki, almasın. Nə var, nə var, kağız-mağız texnikidir, təzə hoqqa verəcəy elmə…

– Uşaqları da gözlərini dikib onun-bunun üstbaşına.

– Sən burda da başladın? Saxla özünü də bir az, yeznə! Bir də ki, mənim balalarım kimnən əskik dolanır ki? Yaxşı şeylərdən danış, de ki, bacilima[4], gedirik evə, ayaqlaruvun altına xəlçə salınacaq, qoyun kəsiləcək, qohumlar-tanışlar başuva yığışacaq, hal-əhval tutacayıq birbirimizdən. Yoxsa…

– Hə, demə, demə. Zəri bakılı bacımıza bir polo[5] bişirtdirib ki, gəl görəsən. Day Bakı kotleti, kolbasası, supu-mupu yox e, polo, polo! – deyib ağzını marçıldatdı və daha nələrsə söylədi.

Qadın artıq eşitmirdi doğranıb tökülən bu sözləri. Fikirləşirdi. Görən, o bu yerlərə çox-çox illərdən sonra niyə qayıtdı? Onu bu yerlərə ürəyinin dərinliklərindən baş qaldırıb cücərən bir arzu – uşaqlıq dünyasına qayıtmaq arzusumu gətirib çıxardı? Nağıllı, sığallı bibisi Xanbikəmi? Qırmızı kərpicli evin sərgüzəştlərimi?

Maşın kəndin "Kiçik bazar" deyilən hissəsindən keçib Şiləvara tərəf döndü. Enli, dəmir darvazanın qapıları açıldı və düz həyətə girdilər.

– Gələn yollaruvuza özüm qurban! Qurban kəsəydim gərək. Allah heç bəndənin əlini aşağı, dilini güdə eləməsin. İlahi, amin! – bibisi qızıydı irəli yeriyən, Zərnişan. Onu lap yaxşı tanıdı qadın. Amma çox-çox dəyişilmişdi.

– Sənə babalarım qurban, Memi! Yəni bu sənsən, gəlib çıxdun buralara? Əziz qardaşımın əziz girami[6] balası! – deyib ağlamsınan, oturduğu yerindən asta-asta qalxan Xanbikəydi. Yaşı ötsə də, hündür, düz qaməti hələ əyilməmişdi, gözləri işıqlıydı, səsi yenə həmin səsiydi qoca bibinin.

Qadın gözləyirdi ki, indi burada bir qucaqlaşma, öpüşmə və hətta ağlaşma olacaqdır. Düzdür, onlar qucaqlaşdılar da, öpüşdülər də, qadın nədənsə kövrəldi də, amma bu həsrət, bu doğmalıq bir neçə il bundan əvvəlki həsrətə, doğmalığa bənzəmədi...

Xanbikənin qardaşı bir neçə il idi ölmüşdü. Ancaq göynəmi, acısı hələ ürəklərdə idi. Qır döşənmiş həyətdə bayaqdan bəri velosipedini o yana-bu yana sürən cuqqulu, totuq, göyçək bir qız da:

– Mamalı! Qıza[7], nənəli! Bu çimdi belə-ə-ə? – amiranə dilləndi. – O! Siznən döyüləmmm! Bular çimdi belə axı? – deyə uşaq əsəbiləşdi.

– Sənin o totuq canına maman özü qurban! Cinnənmə, sənə cinnənməy olmaz. Bax, bu xalandı sənin. Bu da onun qızıdır, – deyə Zərnişan cavab verdi.

– Bəs niyə demirdiz mənim xalam var, qızı var, cələcəylər bizə. Pisdiylinin biri pisdiylilər![8]

Nəvəsiydi, deyəsən, Xanbikənin, bunun da adını eşidib üzünü görməmişdi Memi.

Memi! Yəni Məryəm. Bəli, Məryəm idi bu sarışın saçları çiyinlərinə tökülü, mütənasib bədənli, ucaboy, iri göy gözlü, zövqlə geyinmiş cavan qadının adı. Bir zamanlar Tanrıca çağırılan balaca Tanrının əsl adı. Atası elə-belə Tanrım, Tanrı, Tanrıca çağırardı onun adını.

Tanrıca böyüdü. Tanrı oldu. Bir az da böyüyüb Məryəm oldu. Memi çağırılan Məryəm. Yazıq Məryəmciyəz, bəlkə də, çox yaddaqalan, düşündürən maraqlı bir uşaq olduğundanmı, "od-yalovça"lığındanmı həmişə bir neçə adlı, bir neçə ləqəbli olardı.

Böyüdü Məryəm, həmin bu "od-yalovça" Tanrı. Yıxıldı, böyüdü, durdu, böyüdü. İnsanlar içinə girdi, payız gördü, yay gördü, qış gördü, bahar gördü, böyüdü. Atalı-analı gözəl günlər də

[4] Bacilima - bacı

[5] polo – plov

[6] Əziz girami - əziz xələf, sevimli

[7] Qıza – ay qız

[8] Pisdiylilər – pis adamlar

gördü, qorxulu yuxular da gördü. Yuxularında dördayaqlı adamlar gördü, böyüdü… Əli çörəyə çatmamış atasız-anasız qaldı beləcə… Böyüdü…

Məryəm təmiz idi, ülvi idi, bütün içindəki aləmiylə müqəddəs idi, lap "Məryəm ana" kimi, "Müqəddəs Məryəm" kimi. Di gəl ki… həzrəti Məryəm müqəddəs olaraq, müqəddəs kimi də bizə gəlib çatdı. Onda məlaikələr vardı "Məryəm ana"nın aləmində, fəza həmişə mavi bir pərdədə yırğalanardı, onda cənnət quşları vardı və cənnət quşları cik-cik edərək xatalı söhbətlər danışmazdılar, tövbə! Onlar dimdiklərində cənnət suyu daşıyar, cənnət bərəkəti gətirərdilər müqəddəs Məryəmlərinə…

* * *

İyirmi il bundan əvvəl o, balaca bir qız idi. Hər yay çağı bu yerlərə istirahətə gələrdi. Həyətdə şaftalı ağacları çiçəkləyərdi. Türk qərənfili, solmaz çiçəyi, şəbgülün qoxusu hələ də burnunun qoxu yaddaşındaydı.

Ömründə toyuq başı kəsməyən xoşqılıq Əsəd kişinin – Xanbikənin ərinin, bu həyət, bacada ayrı-ayrı qəfəslərdə bülbüllər saxlamağa ürəyi gələrdi. Amma onların da cəh-cəhi qulaqlarının yaddaşında qalmışdı yaxşıca.

Və bu da yadında qalmışdı ki, günlərin birində özüylə bir ovuc dahar[9] götürüb qəzvin alçası ağacına dırmanıb və atılıb budaqların birinə, elə ordaca üz-gözünü qırışdıra-qırışdıra, dili-dodağı qamaşa-qamaşa, sulana-sulana ləzzətlə bu alçalardan bu dahara basa-basa yeyirdi. Bunu da soruşub öyrənmişdi ki, bəs bu qəzvin alçası ağacını vaxtilə qəzvinli bir qoca, qocadan da qoca, lap qoca, pirani bir baba özüylə gətirib bu yerlərin torpağına basdırmış və bu kəndin neməti etmişdir.

Ağacın altında oturub badımcan tutmasıyla məşğul olan iki arvad xeylağının qart-qurtunu eşitdi:

– Nənə vay! Əsəd kişiyə nə cavab verəcüyük? – deyə birisi, cingöz arvad donquldandı.

– Nə olub axı?

– Noləcəy, o Bakidən gələn yalovça var ha…

– Hə, hə, hə. Sora?

– Hə, hə də, nənəş! Açıb qəfəsi, buraxıb bülbülləri dəəəə…

– Vuy, vuy, vuy! Sən Quran! Heyif, heyif o bülbüllərdən. Bu nədi, bu nədi, od aparsın görüm onu, sağ-salamat gəlməyəydi heç! Gör bir neçə manatdı o bülbüllər, – o birisi dilləndi. Başında yekə donqarlı ləçək, əynində uzun, enlibalaq tuman, belini bərk-bərk dartıb sarımış qadın – Şabacı arvad.

İndi bu birisi – cingöz, ifritə Səfurə dilləndi:

– Boş qalan yerlərüvüzə qurban, ay bülbüllər! Əli quruyeydi helə sizi açıb buraxanın.

Budaqların arasından gözlərini geniş açıb, onlara maddım-maddım baxan Tanrı birdən qorxdu, istədi başını əyib tünlükdə gizlətsin, bu ara budaq silkələndi və bir-iki alça şappıltı ilə düşdü cingözün başına. Cingöz arvad başını dikəldib yuxarı baxdı: hər şey aydın idi. Tanrını açıq-aydın gördü.

Kənd-kəsəkdə yaxşı qoymuşdular onun adını: İfritə, ikiüzlü, yaltaq, sözbaz, paxıl, araqarışdıran, yalançı, xəbərçi, böhtançı, tamahkar Səfurə! Ayıbını ört-basdır etmək üçün cingöz hey yaltaqlanırdı:

– Hi! Qıza, Şabacı! Necə qıyırsan ona! Adamın onu yeməyi gəlir. Qurban olum ona da, dədəsinə də, nənəsinə də! Təkdin[10] e! Sən Allah, sən bu nə qarğışlardı, tökürsən o əzizgirami balaya? Ürəyi yuxadı da, onçun buraxıb bülbülləri də-ə-ə…

Şabacı barmağını çoxdan dişləmişdi. O da başını yuxarı qaldırdı, o da Tanrını gördü və görcək üzünün bütün dərisi gözlərinin kənarında büzüşdü, dəli kimi hədər-hədər şaqqanaq çəkdi və başladı:

– Nənəş, boyuva qurban! Sən o ağaca necə çıxdun? Könlüvə alça düşüb bəyəm-m-m? Nə xossan[11] e sən! Nənə sənə qurban, deyəydin, nə çox səğir- məğir[12] uşaq! – Çıxartdırardım, dərərdilər dəəə sənçin.

Hər şey aydın idi balaca, həssas Tanrıya. Bunlar ikiüzlü, yaltaq Şabacıları, Səfurələriydi bu kəndin.

* * *

Bütün ömrü boyu xəyalının və yuxularının rəngli bəzəyi olan bu kənd və bu kəndin qırmızı damlı evlərinin arasından daha vüqarla qızaran qıpqırmızı, qırmızı kərpicli ev!

O bu evin sadə kənd bəzəyini sevmişdi bir vaxtlar... Şəhər evlərindən necə də fərqlənirdi kənd evləri. Divarlarda taxçalar, taxçaların içində

[9] Dahar –alça ilə yeyilən duz və nanə qarışığı

[10] Təkdin - bəsdir

[11] Xossan - gözəlsən

[12] Səğir-məğir – yetim-yesir.

rəngli-rəngli boğçalar... İpək parçadan zərli saplarla tikilisi vardı, çəhrayı güllü çitdən olanı vardı, qurama tikmədən olanı vardı. Hamısı da səliqə ilə düzülürdü bu taxçalara. Divarların üstündə kibrit dənəsi kimi ayaqları olan əyri-üyrü adamlar çəkilmiş, küncü-bucağı yeyilmiş köhnə xalça asılı qalardı. Əyri ayaqlı, ləkəli güzgüyə yapışdırılmış şəkillər… Burada ata və anasının, hətta özünün şəkilləri güzgüyə düzülü qalardı. Nikel çarpayı hüphündür yığılardı. Tanrıya elə gələrdi ki, hansısa bir dağı yerindən qoparıb, gətirb qoyublar bu çarpayıya və üstünü də bəzəkli ipək şeylərlə bəzəyiblər. Döşəmə bir-iki təzəli-köhnəli xırda-para xalça-palaz və həsir-məsirlə döşənəkli olardı.

Bir az aşağı başda zirzəmiyə oxşayan mətbəxdə Tanrının ürəyincə olan əntiqə dəm-dəsgah vardı: çölmək, su səhəngi, dolça, doşab teşti, abqora, araqnanə tökülən uzun, enliağız şüşə bərnilər, hörülmə bazar zənbilləri, bir tərəfdə atılıb qalmış kirkirə, məcmeyi, piltəsi yanıb qurtarmış hisli çıraq, saçaqları sallaq-sallaq xurcunlar… Bunlar Tanrının yadından heç zaman çıxmırdı.

Hələ həyətin çəpərə tərəf olan hissəsindəki quyu! Saatlarla əyilib baxardı bu quyuya. Bildiyi hərfləri bircə-bircə deyərdi. Quyu da ona cavab verərdi, öz əks-sədasıyla. Lazımlı, lazımsız quaça[13] ilə nə qədər su dartıb çıxarardı quyudan, ta tərləyib yorulanadək.

Bu evə tez-tez gedib-gələn çörəkbişirən Cahan qarını necə əldən salardı, ay Allah! İsti təndir çörəklərini, təndirin xoş ətrini qoxlamaqdan doymazdı ki, doymazdı. İlişib qalardı Cahan qarının ətəklərində.

Bəs ban! Qırmızı suvaqlı damın banı? Bu banda nələr tapılmazdı, İlahi, Tanrı üçün eşələməyə? Bana sərilmiş irili-xırdalı soğanların üstündən dabanları ağrıyana kimi belədən-beləyə keçib bura atılmış köhnə-möhnə kitabların içində bütün günü eşələnərdi, xoşuna gələni seçib götürərdi. Buradan tapdığı köhnə xurcunun içindən oğlan uşaqları kimi özünə xırda mıx, pas atmış açarlar, xırda ocaq maşaları, nə bilim nələr seçərdi. Alt-üst eləyərdi bu banı. Lap üzüləndə elə oradaca, banın bir küncünə atılmış bir ayağı sınıq, o biri ayağı laxlayan köhnə uşaq beşiyinə yıxılar, guya ki, yatardı.

Şirin idi burda keçən uşaqlıq çağları, dadlı idi bu xatirələr...

* * *

Heyrət götürmüşdü Məryəmi. Hara köçmüşdü bəs onun gördüyü o aləm? Bu torpağın üstündəki o aləm pərən-pərən olmuşdu. Yoxsa ölmüşdü şaftalı çiçəkləri, qəzvin alçası? Hanı türk qərənfilli, solmazçiçəkli, şəbgüllü o geniş həyət?

Qəribədir, küçələr də dəyişmişdi dünyasını. Küçələrdə uzun-uzun yağışlar yağardı, küçələrdən qara çətirli adamlar ötərdilər.

Evlərin sütunları qırmızı kərpicli, damları qırmızı kirəmitli, qapıları döymə naxışlı… evlər hərəsi bir cür, hərəsi başqa gözəllikdə, pəncərələrinin rəngli-rəngli şüşələri…

Yollar – meşəli, şam ağaclı, dəmirağaclı, şəmşidli, vələsli, palıdlı, söyüdlü, arxlı yollar…

Heyran qalardı bu dünyaya. Cənnətdi, nəydi? Və bu cənnətdə yaşayan adamlar həsəd aparılası adamlardı.

İndi kənd daha da gözəlləşimişdi, öz görkəmini dəyişmişdi, amma həmən o cənnət başqa cənnət idi.

Hanı işığı pəncərələrdən küçələrə zəif-zəif ələnən, qırıq-qırıq zərrələrində dolaşa qalan, birgünlük ömrünü oda fəda edən o pərvanə hekayətli çıraqlar?

Yerlə yeksan olmuşdu o qırmızı ev! Öldürdülərmi o evi? Nə üçün?!

İndi bu evin tar-mar olmuş torpağı üzərindən düz göyə uzanan bir ağ ev ucalırdı. Çoxpəncərəli, çoxqapılı bir ağ ev! Güzgülü qapının yanında Zərnişan dayanmışdı. Zərzibadan od tutub yanırdı. Kök, ətli boynundan adamın ürəyini darıxdıran bir neçə qatlı qalın qızıl zəncir asılmışdı. Xırda, ətli qulaqlarına bərk-bərk yapışan, par-par yanan iri sırğaları seyrək qırmızı saçlı başını daha da balaca göstərirdi. Hələ barmaqları! Yaxşı ki, Allah insanların ayaq barmaqlarını qısa eləmişdi və daha başqa yerlərindən barmaq çıxarmamışdı! Şüurları olmasaydı, gülməli gələrdi yoxsa yaranmış bütün başqa məxluqata insan adı daşıyan bu zavallı harınlar. Vay sizi, düşkünlər, ha!

Ötəri fikirlər idi bu fikirlər ki, Məryəmi çulğamışdı. Dolaşıb ötdü fikirlər, uçub getdi fikirlər Məryəmin başı üzərindən, gəlib arıq bədəni üstündə, yumru başını qəhvəyi ləçəklə bərk-bərk sarıyan, boyu "bir qarış" balaca bir qızcığazda dayandı. Fikirləşdi ki, Allah göstərməmiş, itələsəydin, əlindəki vedrələrin içində batıb qalacaqdı ki, arıq çəlimsiz bu qız! Hələ o gün o

[13] Quaca- vedrə

yekəlikdə çamadanı necə aparırdı? Bu qızın gücü niyə tükənmir, İlahi?!

Xanbikənin dediyi kimi, yəni doğurdanmı bu qız “əcaib məxluqdur?”

Əgər güclüdürsə, bəs niyə rəngi sarı, bənizi solğundur, üzündə fağır, ürkək bir ifadə var? “Qız! Od aparmış, qaç tənəbi[14]yə, stolun üstün-zadın bəzə. O kresloları da düşürt aşağı, eşitdin? Qız, beli sınmış, qazı da yandır, xörəkləri at üstünə, qızsın. Eşitdin?

Bunları Zəri buyururdu həmən o ortalıqda dolaşan qıza. Asta-asta, nazlana- nazlana buyururdu.

Bir vaxtlarsa…

“Qız! Od aparmış, get xəlçə-palazı gəti, gəl, sər bu çəmənliyə, bir yaxşı təzədəm çay içək, eşitdin?”

“Qız! Canı yanmış, kömürdən-mömürdən gəti gəl, samavarı odda, eşitdin?! Qız, beli sınmış, get ocağı qala, çölməyi də qoy üstünə, üfür odunları, qoy tez bişsin xörəy, eşitdin?!”

Bunları isə bir vaxtlar cavan Xanbikə buyurardı asta-asta, nazlana-nazlana, sonralar o yeribilinməz qalan didərgin Xoşqədəmə, ev qulluqçusuna...

* * *

Zərnişan anasının deyişiylə, yerişiylə ətcələnmişdi, böyümüşdü.

Ancaq Zərnişan da uşaq olmuşdu. Divarlardan tutub tıpır-tıpır yerimişdi. Ayaq açıb bu çölün, bu çəmənliyin üstündə gəzmişdi.

Zərnişan da gözəldi. O da sevmişdi, sevilmişdi. Haçansa onun da titrək, incə hissləri vardı, haçansa kiminsə ürəyinin dərdinə şərik olanda gözləri dolmuşdu, böyümüşdü. Amma…

Amma ana tərbiyəsi! Amma içində olduğu mühit! Amma hamıdan üstün olmaq ehtirasları! Bütün bunlar Zərnişanın ən yaxşı hisslərini, gözəlliyini oğurlayıb gizləmişdi, ana bətnindən dünyaya tərtəmiz atılan Zərnişanı haçansa udmuşdu.

Bir zamanlar Zərnişana bacı kimi isinişib onu sevən Məryəm indi birdən-birə niyə belə qəribsədi? Bu böyüklükdə evin bu böyüklükdə Zərnişanı açıq-aşkar biçarəydi, yazıqdı!

* * *

Ağ evin ağ mərmər pillələri! Nə uzun olarmış ağ evə uzanan ağ pillələr. Yoruldu ki bu balaca qızcığaz bu uzun-uzadı pillələrdə dönüb-çönüb, çönüb-dönüb, yuxarı-aşığı, aşağı-yuxarı addımlamaqdan?!

– Kordu, kardı, zəlildi, bir dənə meşə heyvanıdı! – deyə əlində diş fırçası, dişlərinin üstü ağ palçıq Paşa nə üçünsə hirslənmişdi.

– Yaxşı, yaxşı daha! Keçib bizimki, – deyən Zərnişan bir an sonra marağını gizlədə bilmədi: Nolub bəyəm? Nə işdi?

– Ayı kimi bir şeydi. Əlimdə iki kərpic olsa, ixtiyarımda bir dəniz, məhv elərəm onu bir günün içində.

– Ox, ürəyimi çəkdi bu ürəyi çəkilmiş! Neynib axı bu köpəyin qızı sənə?

– Neyniyəcəy? İşə gecikirəm, papağımı tapa bilmirəm.

– Daha o neyləsin, ay sözbaz! Çərrətdün sən məni, ay xırdaçı! Yerinə düz qoy, düz də tap daaa!

– Dayan, dayan, hələ o sənin başuva işlər gətirəcəy! Papağın yerin o bilmir? O sənin hansı qızılıvun, hansı daş-qaşuvun hansı deşiydə yerləşdiyini bilir. Günlərin bir günü də oğurlayıb qaçacaq, qalacaqsan yana-yana, onda deyərəm sənə.

– Baş-beynimi aparma, yeri çıx get xaraba sexüvə, dağıtdılar sexivi, yıxdılar evivi. Sabah da hökumət əlli-ayaqlı basanda deyəcəksən ki, sənin üstündə oldu. Heyif, Məryəm buradadı, yoxsa açardım ağzımı. Nəhlət şeytana!

– Hi… hi… hi… Məryəm, görürsən də necə hirslidi bizim bu Zəri. Vallah, mən ona güldən ağır bir söz demərəm heç vaxt. Onu hamıdan yaxşı saxlayıram. Üst-baş onda, daş-qaş onda, mənim kimi zirəng ər onda. Ancaq bilmirəm, niyə belə nervinnidi? Hirsləndi ha, qurtardı. Axşamacan düşəcey mənim üstümə. Əşşi, düşsün e mənim üstümə, təki hirsi çıxsın bədənindən. Mən elə özüm istəyirəm ki, tez-tez qeyzlənsin, canı rahat olsun. Hirs nədi, içəridə saxladı nədi? Yoxsa bütün payimal olar, – deyə canıyananlıq edirdi Paşa.

Bu ara balaca qız əlində yekə, dimdikli papaq tir-tir əsə-əsə onlara yaxınlaşdı:

– Budey papaq!

– Azzar, papaq! Ver bura görüm! – Zəri papağı qızın əlindən dartdı və dedi: – Ədə, Paşa! Papağın tapıldı. Al qoy o tüksüz başuva, çıx get,

[14] Tənəbi - balkon

bizi bir az dinc qoy, sən atovun goru. Bir biz də biləy dünyada nə var, nə yox. Qəqosan, qəqo, xalis qəqo[15]!

Paşa pərt olmamışdı, yox! Deyəsən, öyrəncəliydi arvadından eşitdiyi "ılıq", "mülayim" sözlərə. Qapının çıxacağında bir az dayanıb gözlərini Zərinin xırda, ətli gözlərinə, kök, batman bədəninə və qıpqırmızı üzünə zillədi bir müddət. Sonra rüşvət verirmiş kimi xoşa gəlməyən bir gülüşlə gülümsündü arvadının üzünə, əlindəki papağın tozunu çırpdı yanına, üstündəki yekə düyməni sığalladı. Sonra həmən o yekə düyməli papağını rahat-rahat başına yerləşdirdi, guya ki, səhərdən işə gecikən, tələsən, partlayan bu deyildi və özünü yığışdırıb oxlov udmuş ilan kimi dübbədüz dartındı, evdən çıxdı.

Dəmir darvazanın qapısı Paşanın ardınca örtülən kimi Zəri hər iki əliylə bir yekə "Kül başuva!" göndərdi onun dalınca və dedi:

– Zəndeyi-zəhləm gedir üzünnən. Araqarışdıran, qeybətcil, xəsis! Hər nə desən, bunda! Mən olmasam, aləmi dağıdar. Elə bilirsən, buları mənə ürəkdən deyir? Bu gün ölsəm, səhər toy elər. Nə utanmağı var, nə qızarmağı. İşdə də camaata qan uddurur. Deyir, sexdəki cındır-mındırdan nə xırda-xuruş qaldı, gərək mənim olsun. Xırdanı da lop-lop udur, zırpını da lop-lop udur özüyçün. Verməz, heç kimə xeyir verməz. Yağ verməz şabalıtdı bu! Fors da ki partladır bunu. Ana bilməz, oğul tanımaz. Qoşa-qoşa oğulları var birinci arvadından. Rənglərin tanımaz! Bunun öhdəsindən hələ mən gəlirəm, yoxsa o, elə işlərdən çıxar, elə işlərdən çıxar ki, gəl görəsən… Ancaq nə fayda? Qeyz məni öldürüb. Şəkər məni tutub, davlenni zəhrimar məni tutub, ət də məni basıb. Daş bunun varına da, özünə də, – deyən Zəri gah oturur, gah durur, gah da nazik, seyrək saçlarını oynadırdı.

Bəli, dəyişmişdi Zərnişan, çox dəyişmişdi. Əvvəlləri onsuz da bir qədər çılğın təbiətli olan ərköyün Zəri indi tamam başqalaşmışdı. Əsəbiydi, ağına-bozuna baxmadan ağzına gələni yağdırırdı Paşaya. Ərindən tutmuş, qohum-qonşularına qədər, həyət-bacada əlləşən lap bu balaca qız uşağına qədər hamıya dəyib-dolaşırdı. Qızıldan-gümüşdən danışırdı, amma bu cansız əşyalarla beşdaş oynamaqdan da yaxa qurtara bilmirdi.

Bəli, balaca qız özündən ikiqat ağır kresloları düşürdü aşağı. Guya ki, bu mütləq belə olmalıydı. Stuldan kresloya keçməliydilər. Oturdular. Balaca, girdə çay stolu çox təmtəraqla bəzədilmişdi.

Araya bir neçə anlıq sükut çökdü. Zəri dilləndi:

– Nə fikrə getmisən? İç, ləzzətli çaydır. Araqnanəlidir.

– …

– Nə işdi, bacılima, eşitmirsən məni?

– Hə, düzdü, düzdü.

– Nə düzdü?

– …

– Əxxayyy, adam da adamı eşitməzmiş! Ooo, qızaa! Sənnən döyüləm?

Məryəm bütün bu anları, doğrudan da, heç nə eşitmirdi. Heç nə görmürdü də. Yalnız indi, Zəri "Əxxayyy" kəlməsini vurğu ilə söyləyəndə axırıncı "yyy"lar qulaqlarına doldu, ordan da beyninə keçdi və içinə baş vurduğu o başqa aləmdən ayrıldı. Qeyri-ixtiyarı dedi:

– De, Zəri, de! Niyə kəndləri öldürürsüz?

– Necə yəni kəndləri öldürürük? Kim? Bi-i-iz? Vallah, sən danışanda mən heç nə başa düşmürəm də...

– Bilirsən, kəndlər, torpaqlar öləndə ordakı adamlar da ölürlər axı!

– Bissimillah, bissimillah! Kim ölüb, qız a! Deyirsən, yəni kənddə ölüb-eləyən var? Belə demək istəyirsən, hə? Bağrım çatdadı, tez elə, cavab ver, bilək. Kimdi ölən? Adam da loxəbər olarmış! Cəhənnəmə ölsünlər, gora ölsünlər. Mənnən artıq döyüllər ki, şəkər məndə, davlenni məndə. Bir də mənə lov xəbər danışma!

– Öldürdünüz, nə vardısa, öldürdünüz! Heç olmasa, qırmızı evə toxunmayaydız!

– Vallah, mən heç nə başa düşə bilmirəm. O keçəl Məsmənin oğlu o ləğvə[16] Hüsü var ha, o da danışsa, başa düşərəm, sənin danışığından ömrüm boyu baş açmadım da!

Beləcə də Zəri danışanda o heç nə başa düşə bilməzdi. Qulaqları heç almazdı da bu sözləri. Fikirləri bu boş fəzada qov kimi əl-qol atıb yüngülcə, azad-azadyana uçuşardı.

Haçansa "gizlənqaç" oyununda güllərinin, ağaclarının boyunda özünə yer tapıb gizlənə bildiyi bu meşə ətirli həyətin torpağına indi qara qır örtüyü sərilmişdi. Qır döşənmiş qupquru həyətin o başında bir qırmızı rəngli, sarı ciyəli

[15] Qəqo - arvadağız, arvad kimi bir şey

[16] ləğvə - şikəst

yelləncək asılmışdı. Ah, nə qədər yellənmişdi bu yelləncəkdə o! Lap bu cürə qırmızı rəngli, sarı ciyəli qovhağıda![17] Anası belə deyərdi yelləncəyə – qovhağı. Yellənərdi o balaca Tanrıca, ləzzətlənərdi, nəşələnərdi özüyçün dünyanın işlərindən xəbərsiz.

Nə üsünsə Məryəmə elə gəldi ki, bu yelləncəyin yekə, qüvvətli çarxları var, uzun da qanadları. Ah, nə yaxşı olardı, atılıb minərdi ona, bu həyət-bacada yorulmadan dolaşan bu balaca qızcığazı da alardı yanına, qucardı öz balasını, baş alıb uçardılar dünyanın üstündən.

Birdən Məryəm yerindən dik sıçradı. Yüyürüb atdı özünü o yelləncəyə. Bir uşaq sevinciylə yelləndi o yelləncəkdə. Mahnı oxudu. Al dodaqları arasından ağappaq qar kimi inci dişləri göründü. Nə şirin gülüşü vardı Məryəmin. Qəhqəhə çəkib gülürdü. Məryəm bu an sevincin, fərəhin özünə çevrilmişdi. Bəxtiyarlığın özüydü. Ayaqlarını yerə basıb, sanki bütün gücünü topladı, qopdu yerdən. İndi yelləncək göydəydi, göydə! Ona elə gəldi ki, buludlardan yuxarıdadı, ona elə gəldi ki, qatarından ayrılmış durnadı, gücə, qüvvətə gəlib və bu an çatacaq, yetişəcək durna qatarına. Bir şeir qoşdu, haray etdi, durnaları səslədi:

*Durna düzümünə dözə bilmirəm,*
*Durna dözümünə dözə bilmirəm,*
*Qanadları şəhid durnalar,*
*Göylər sizə şahid, durnalar!*

Başını yuxarıdan çəkmək istəmədi, sonsuz səmadan ayrılmaq istəmədi. Səmada meşə görmüşdü, meşə! Meşənin içində balaca, qırmızı ev. Bu nə qırmızıydı belə, bu sonsuz mavilikdə od tutub yanırdı? Yox, yox! Daha kimsənə toxunmaz o göylər təmizliyindəki o qıpqırmızı qızaran evin özünə, çətirləri sallaq-sallaq meşəsinə.

Yelləncək yellənirdi. Göylərin o qalın meşə cəngəlliyindən vələslər, palıdlar, söyüdlər, cökələr, şamlar, qayınlar arasından ucalan bir çinar da pıçıldayırdı: “Mən də sevmişəm, mən də sevirəm və həmişə sevəcəyəm. Eheyy! Yadındamı o sevgili günlər? Bir çinarın da vardı sənin, öz çinarın. Dururmu ola? Yenə eşidirsənmi onun şeirli, nəğməli səsini?”

Yelləncək yellənirdi. Eşidirdi, eşidirdi Məryəm “çinar” pıçıltılarını, bu pıçıltılar arasından ürəyinə axıb tökülən bir əsim ılıq mehdən yırğalanan yarpaq- yarpaq nəğməsini:

“Bu meşənin yaddaşında qala biləydim, huşundan çıxmayaydım, ağuşundan çıxmayaydım…” Yelləncək yellənirdi, yarpaqlar dodaq açıb yorulmadan pıçıldayırdı:

*“Bu meşə kaş məni özgə bilməsin,*
*Qarışqasına qıymaram,*
*Heç bir qarışına qıymaram…”*

Yelləncək yellənirdi. Yarpaqların pıçıltıları Məryəmin kövrək hisslərinə qarışıb eyni ahəngli nəğməyə çevrilirdi:

*“Bu meşəni tək qoymaram, tənha qoymaram,*
*bu quşlar səsimdən qorxub, hürkməsin.*
*Qədəmimdən qaçmasın cığırların ilməsi,*
*bu meşə kaş məni özgə bilməsin.*
*Yorulsam bir axşam, tükənsə sözüm, səsim,*
*dönüb bir şam ağacına bu yerlərə*
*qa-yı-da-ca-ğam-m-m…” (Ç.Ə)*

Yelləncək yellənirdi, qovhağı yellənirdi, dünyanın ən nəhəng göy arabası yellənirdi… Özü də necə yellənirdi…

* * *

Axşam çökürdü. Məryəm yuxarıdakı otaqların birindəydi. Düzü, qarışdırmışdı bu otaqların adlarını. Tənəbi, zal, orta ev, künc ev, şüşəbənd ev, “Hacı mənə baxdı” ev! Nə isə, baş açmadı hansı otaqdaydı, amma onu bildi ki, əlini atıb işığı yandırmağına peşman oldu. Elə bil evə gur projektor buraxdılar. Gözləri qamaşa-qamaşa tavana göz gəzdirdi. Vay, dədə!

Tavanın tən ortasından kilsə çilçıraqlarını xatırladan nəhəng bir çilçıraq sallanırdı. Ona elə gəldi ki, bu nəhəng çilçıraq bu saatca tavanı yerindən qoparıb, yerlə yeksan edəcəkdir. İstər-istəməz arxaya çəkildi və özü də hiss etmədən nəsə soyuq bir şeyə toxundu, çönüb baxdı. Yerdən ağ mərmərdən tökülmə bir qadın heykəli ucalırdı. Ayıb olmasın, beldən aşağı çılpaq, beldən yuxarı nazik bir pərdəyə bükülü, guya ki, utanırdı, döşlərini tutmuşdu. Heykəl gözəl heykəl idi, hətta sanki bir mənası da vardı və elə bil deyirdi: “Niyə məni Luvr muzeyindən didərgin salıb buralara gətirmisiz? Axı məni hansı yolla buralara gətirmisiz? Bir vaxt bir dəb idi bu zəhrimar çılpaqlıq, düzü, indi bu kənd-kəsəkdə utanıram görkəmimdən. Buraxın məni, çıxıb gedim öz

[17] qovhağı - yelləncək

diyarıma. Axı sizin otaqlarınız nə qədər təmtəraqlı olsa da, heç bir muzeyi andıra bilməz? Otaqlarınıza düzülmüş bu zövqsüz tör-töküntü, şüşə qırıntıları nəyə lazımmış ki? Buraxın məni, bu çürük, ölü əşyalarınız sıxır könlümü!"

Və yoğun Paşa – səhərdən axşama kimi başı cındır-mındıra qarışan "cındırtrest" sexinin müdiri Paşa nə başa düşəydi ki, öz diyarının həsrətiylə çırpınan həmin bu yarıçılpaq qadının əhval-ruhiyyəsi elə özüylə də qəbrə gedəcək? Yazıq heykəl! Sən yoğun Paşaların evində elə-belə bir əşya olaraq da qalacaqsan. Hanı səni yaradanın qabarlı əllərinin gərgin hisslərini, düşüncələrini bunların arasında duyan bir kimsə? Bu şişman Paşalar üfunət bataqlığında ilişib qalmış ədabazlardan başqa kimsə deyillər axı!

* * *

İyirmi il bundan qabaq, düz həmin o əyri ayaqlı güzgübənd qoyulan tərəfdən yerləşdirilən elə o cür, əyri ayaqlı başqa bir güzgübənd dururdu. Bu daha təmtəraqlı idi, deyirdilər ki, "arabski"dir. Dəbdən düşdüyündən üstündəki şəkillər də öz yerini tapmışdılar. Köçmüşdülər zərli-mərli alboma. Amma hamısı yox. Onların da dəbdə olanları vardı, dəbdən çıxanları vardı. Dəbdən çıxanlar aşağıda – zirzəmidə yerə səpələnmiş təzəli-köhnəli kitablar arasından boy verir, bura atılmış qış ehtiyatı – soğan, kartof, boranı qarışığında itib-batırdı.

Məryəm gəlib düz zirzəmiyə girdi. Həmən o zirzəmiyə ki, indi teştsiz, satılsız, kirkirəsiz, çölməksiz-viran qalmışdı. Əyilib yerdən hərəsi bir küncə səpələnmiş yarımcırıq, yarıcızmaqara, kiminsə ovcunda əzik-üzük olmuş şəkilləri qaldırdı, ətəyilə tozunu sildi.

Gözləri deşilmiş bir şəkli görəndə kövrəldi. Yaxşı ki, tanımadı, ancaq bir qədər duruxdu bu şəklin önündə. Bayaqdan tutulmuş Məryəm yalnız indi, bu atılmış şəkilləri görəndə qəhərləndi. Lap indicə sel kimi axacaqdı göz yaşları…

Göydən asılmış bir rısa[18] soğan və boranı gördü. Təskinlik tapdı, nəydi, bu acı soğan şələsiylə key boranıda? Yaxınlaşdı, astadan:

– Deyin, atamın, anamın şəkillərinin yerini deyin! Deyin, siz Allah, bəlkə, bu yarıcırıq, əzik şəkillər dünyadan vaxtsız köçmüş o nakamlarındır?!

Hiss elədi ki, gözlərindən yaş axır. Gileyləndi öz-özünə: "Niyə belə olur bu dünyanın işləri? Nankorlar! Bir vaxtlar siz ki onun atasının ətrafında pərvanətək fırlanır, yaltaqlanırdınız, yerli-yersiz məclislərdə sağlığına cəngacəng qədəh döyüşdürürdünüz? On ildi ki, bu ağ dünyadan atası köçüb, hələ köz bağlamayıb heç ana yarası! Nə tez unutdunuz övladlarını həmişəlik tərk edib gedən bu zavallıları? Ciyərparalarının qapılarını niyə döymədiniz bircə dəfə də olsa?!"

Təskinlik tapdı, nəydi? Susdu. Gözlərini bərk-bərk qapayıb bir ara sakitləşdi. Gəlib alçaq pəncərənin məhəccərində oturdu. Yox, bu aləm daha doğmaydı, burdan çıxmaq istəmirdi. Durub elə-belə, nə üçünsə var-gəl etdi. Ayağının altında bir şey diyirləndi. Əvvəl fərqinə varmadı, sonra yenə bu şey ayaqlarını əzdi. Əyilib baxdı, yerdən qaldırdı. Başa düşə bilmədi, tütəkdi, ya qarğıdan qayrılma ney? Yaman uzaqlara qayıtdı.

Çörəkbişirən Cahan qarı nəql eləmişdi o balaca Tanrıya ki: "Bəs sənin atan Əsəd kişinin qoyunlarını başına yığıb, dağlara çəkiləndə, yaxşı tütək çalardı…"

"Bəli, həmən bu harın Zərnişanın atasına – varlı Əsədin qoyunlarına çobanlıq edərdi sənin atan. Beş yaşında ikən bir təbii fəlakətdən valideynlərini itirmiş, öz doğma bacısı – həmən bu Xanbikə onu Qəzvin adlı bir şəhərdən bu yerlərə gətirmiş və əri Əsədin "çörəyiylə böyütmüşdü". Belə böyütmüşdü də, elə beş yaşından əlinə çomaq verib, qabağına sürü qatar, bir loxma çörəklə gün çıxandan dağlara, yamaclara ötürərmiş. Hə, atan arıq, uzun, şümal oğlandı. Gündüzlərini bu tütək və qoyunlarla keçirər, gecələri gözlərinin qarası gedənə kimi kitab oxuyardı. Hərdən bir gözə dəyəndə də ki, axşam toranlaşa-toranlaşmaya, ya dalında bir şələ odun meşədən, ya da qabağında mal-qara örüşdən gələrdi. Tütəyini də elə yanıqlı çalardı ki, adamın ürəyini sap kimi nazildərdi.

Böyüdü, yepyekə oğlan oldu. Sonra birdən-birə heç kimin gözünə dəymədi. Bir neçə il də keçdi, kəndə böyük qulluq sahibi kimi qayıtdı. Yaxşı işlədi, kənddə ona hörmət etməyən adam tapılmazdı. Çobançılıqdan başqa ona heç bir şey bağışlamayan bax həmin bu "ata-anasını" da unutmadı, qeyrətlərini çəkdi. Yaxşı oğulluq elədi onlara, qızım!

Sora bir bakılı qızına elçi göndərtdi, evləndi. Bax, sənin bu ananla. Anan da ki, ana idi ha!

[18] Rısa - salxım

Xanım-xatın, hörükləri dabanına dəyərdi, "uzunsaç Qumral" deyərdilər adına. Acığın da tutmasın, ay bala, heç Bakı qızlarına oxşayıb eləməzdi, danışanda qulağını ağzına tutmasaydın, eşitməzdin, vallahi!

Günlərin bir günü də nə üçünsə üz döndərdilər bu yerlərdən və həmişəlik Bakıya köçüb getdilər. Sən belə şeyləri bilməzsən, bilməsən, yaxşıdır".

Bu nə müəmmalı sözlər idi ki, qarı danışmışdı bir vaxtlar? Bayaqdan bəri hər iki əlində tutduğu yarıcırıq, gözləri deşilmiş şəkilləri və əfsanəvi tütəyi dodaqlarına yaxınlaşdırdı. Və indi anladı ki, hönkürür, ağlayır. Bu susqun tütək və gözləri deşilmiş şəkillər onu yandırıb yaxmışdı. Üsyan edirdi, nədi? Qışqırdı:

– İn-fü-zor-lar!!! İnfüzoriyasınız, infüzoriya! Taxtabitisiniz hamınız! Böcəklər, birəsiniz, birə!

Heç şübhəsiz, nə şişman Paşa, nə də zərlizibalı Zərnişan heç nə başa düşmədilər bu sözlərdən. Zərnişan bircə bunu deyə bildi ki:

– Ooo, qıza! İntizar nədi? Sənün nervlərin xarab olub, nə-nə-əə-əə… Doxtura göstər özüvü, bala!

* * *

Aşağı mərtəbədə oturub televizora baxırdılar. Zəri Məryəmə tərəf dönüb soruşdu:

– Memi! Sən canun, bu oxuyan qız var ha, rojdenniyə çağırsam, səncə, neçəyə gələr? Yox, yox! Amma paltarı heç xoşuma gəlmir. Bu nə fasondu axı? Peşə tapıblar özlərinə, hərə üstünə bir dənə pakrıval örtür, çıxıb atdanır-düşür. Nə oxuyurlar, nə deyirlər, heç baş açmırsan. Adamın lap bağrı çatdıyır üzdərinnən. Hamısı da bir-birinə oxşuyur. Oxumaqları da, gözlərinin qaraquraları da.

Məryəm çox biganə görünürdü. Əlindəki kitabı nə üçün belə tez-tez vərəqlədiyini hiss etmirdi, Zəri dönüb arxaya baxdı:

– O! Qıza! Bu nədi, bu nədi! Sən o gözlərüvün qarasını hardan tapmısan ki, belə kitab-mitabla çürüdürsən? Bəsdi, sən Allah, yum onun ağzını. Oxumusan, axı hara çıxmısan? Bu sənin üst-başun, nənə…ə-ə… Bu da qulağ-mulağun da!

Toxundu bu sözlər Məryəmə, amma belə dedi:

– Kinoya da baxmırsan?

– Sən Quran, baş-beynimi xarab eləmə. Mənim hövsələm nə gəzir o hap-gop uydurmalara baxım-ım-m!!!

– Yaxşı film göstərəcəklər indi.

– Dava-mavadandır?

– Deyəsən.

– Nəyimə lazımdır?

– Ancaq baxsan, görərsən ki, müharibə necə aclıq, necə ehtiyac, necə bəlalar gətirdi. Azğınlıq Hitleri nələrə sövq etmədi.

– Qıza! Böyük-böyük danışma e! Sən hara, Hitler hara? Bala, neyniyib bəgəm bu alarvadı[19] köpəyoğlu, kinolar da əl çəkmir yaxasından indiyə kimi.

Məryəm yanıb-tökülürdü. O, hələ heç bir vaxt Zərinin bu dərəcədə kütlüyünü hiss etməmişdi və ona bu dərəcədə yazığı gəlməmişdi, dedi:

– Neyləyib? Bax, iki böyük sobadır. Birindən od püskürür. Böyükdən-kiçiyə, uzaq olsun, lap belə bu yaşlı uşaqlara kimi, həmən bu sobadan üzü aşağı yuvarlandırılır, o biri sobadan çıxan tüstüyə ah-aman, nalə səsləri qarışıb havaya sovrulur. Bu zaman qatillər heç kirpiklərini də qırpmayıb. Bir az başa düşdün? Hələ buna bənzər çox şeylər olub ki, sən bilməsən də, olar, – deyə Məryəm odlu- alovlu danışırdı.

– Vuy dədəli, Allah eləməsin! Sən niyə əlüvi mənim bircə balamın üstünə tutursan, evin tikilməsin? Vuy, vuy, irağ olsun bizdən! Sən Əbəlfəz, bəsdir, ürəyim birtəhər oldu. Qıza, yetimçə, yeri mənə bir oxur[20] su gətir, – deyib hər iki əlini kök, ətli ayaqlarının üstünə qoydu, başını divara söykədi və zəif səslə: – Güli, mama sənün o toppuş canuva qurban, - dedi.

Hər iki ayağını dizlərindən qatlayıb, üçbucaq şəklində oturmağa adət etmiş Zəri, yenə bu oturuşda, qısa kremplin paltarı dizlərindən yuxarı büzülü, ətli baldırlarının arasında balasını bərk-bərk sıxdı.

– Yox, mən gərək fitrə çıxardam bu ev-eşikdən, – deyə əlini hər biri bir batman olan döşləri arasında gəzdirdi, bir ovuc kağız pul çıxartdı, saydı, arasından bir beşlik seçib "yetimçəyə" uzatdı:

– Qıza, əyyar[21], al bu beş manatı, apar o fağır Hüseynə ver, qoy başımızın sədəqəsi olsun. Bi manatı da gətirərsən. Paşa çötkə vurar, əskik çıxar, belüvü qırar, eşitdün, kar olmuş? Kar qulağuva yuyucu barmağı!..

---

[19] Alarvadı - cin, əcinnə

[20] Oxur – parç

[21] Əyyar - çoxbilmiş

Durub həmən pulu qızının, anası Xanbikənin, özünün başına dolandırdı. Sonra da gedib düz Paşanın mıxdan asılmış papağının yanında dayandı. Əvvəl bir az fikirləşdi, sonra nə düşündüsə, bu pulu Paşanın da papağının başına fırlatdı. Paşa evdə yox idi.

Onsuz da çox möhkəm olmayan tellərlə birləşmiş bu ailə yuva xatirinəmi, bir vaxt hansı bir məqsəd ucundansa bir yerə toplanmış dəfinə naminəmi, ayaqları üstündə güclə dururdu.

Ta qədimlərdən insanlar da bütün canlılar, quşlar kimi özlərinə yuva qurmağa can atmışlar. Amma lap qədimlərdən bu yuvaları heç kimin acığına, bəhsinə tikməzdi insanlar, tövbə! Quşlarınkı kimi ağac, çır-çırpı yığımı, küləş və palçıqdan hörülərdi bu yuvalar, bolluca günəş zərrəli. Günəş bərəkətli. Bəxtiyarlıq idi. Qırmazdılar biri digərini onlara tanış olmayan əşyalardan ötrü. Vəzifələri yox idi ki, kətillərini dartıb, başı üstə yerə endirəydilər, qızılın pas atmadığını bilməzdilər. Bilməzdilər…

Od, su, torpaq! Yoğurardılar bunları zəhmətlərinə, günəşdən qaralmış bir dəri və bir sümük bədənləriylə, əsla harın olmayan – oddan, sudan və bəlkə, buğdadan təmiz insanlar…

Çox ruzigarlar əsdi, gəlib dayandı insanlar bir gözəl çağın astanasında. Daha nələr istəmədi insanlar? Biri ailə qurdu elə-belə yuva xatirinə, biri, doğrudan da, yuva qurdu ailə xatirinə, biri bu yuvanı dartıb uzadaraq şah sarayına çevirdi, kiminsə acığına, kiminsə bəhsinə, biri bu yuvaya nə yollarla nələr aşırmadı, nələrin və kimlərin üstündən keçərək, biri bu yuvanı şərab çəlləyinə çevirdi, biri mırtı mehmanxanasına, biri də…

Biri də dəfinə yuvasına ki, dərin bir yuxuya getmiş kimi, həmin bu yuvanın laxlayan ayaqlarından xəbərsiz-filansız uyuyub getmişdi. Belə lax-lax yuvalardan biri də bizim bu şişman Paşanınkıydı. Gecələri təşvişdən gözlərinə çimir belə getməyən ər və arvad indi bu yuvanın qorunub saxlanması eşqinə hardasa böyük ehtiyatla birlik təşkil edirdilər, amma ayrılıqda hərəsi bir niyyətin duasında idi. Bu yuvada ayrı-ayrı balışlara baş qoysalar da, bir döşəyə uzanan iki can, başqa təhər can çəkirdi, başqa təhər niyyətdə idi. Bunlardan hər ikisi biri digərinə ürəklərinin gizli guşəsində açıqca düşmən idi və bəlkə də, biri digərinin bu dünyadan vaxtsız köçməsinə böyük canfəşanlıqdaydı.

Bəli, Zəri beşliyi fırlatdı Paşanın mıxdan asılı papağının üstündən və dedi:

– Allah-taala özü bizim başımızdan uzaq eləsin qan-qadanı. Allah elə Paşanı da şəri-şeytannan, quru böhtannan çəpərləsin, İlahi, yamin! Çörək ağacımdır!

Və bu evdə it yerinə qoyulmayan “yetimçəni” elə huyladı ki, xəyala getmiş yetimçə ödünü uddu, yaxın gəlib, bir güclü dürtmək aldı böyrünün yumşaq boşluğundan və bu cürə “şirintəhər” sözlər eşitdi:

– Nənəvün görüna nəhlət, qizə! Görüm inkir-minkir aparsun səni, üzüvü mürdəşir yusun tezdiynən, inşallah! Mənim də canım qurtarsın elə sənün üzünnən, Allahdan istəmişəm! – bir az soyudu, sonra: – Qizə[22], yezid-zad malı döyül ha sənünçün, pulu itirmə, bərk tut, bi manatı da gəti, gəl. Paşa çötkəyə vuracəy! Birdən qoyub-elərsən seyidgildə ya! Cəddinə də qurban olum, çox qudurtmaq lazım deyil onu, mənnən beşbetər, adı seyid Hüseyndi, bicdiyi yeri, göyü dağıdır. Cəhənnəmə-gora səğirdi[23]. O da Allaha nömrə gələ-gələ sökdü-tökdü bizi.

Deyindi, deyindi, bir az boşaldı Zəri, deyəsən və “yetimçəni” huylayıb bunu da dedi:

– Çər dəymiş! Birdən o bir manatı başuvazaduva dolandırarsan a! Belivi qırram, Əbəlfəz haqqı!

* * *

Məryəm narahat idi. Nə isə itirmiş kimi yan-yörəsinə baxındı. Nilufəri axtardı gözləri. Sonra bu “ev qulluqçusu”nu. Heç o da yox idi. Qulağına qarmaqarışıq səs gəldi. Bu nə hay-küydü, bu nə qiyamətdi belə? Diksindi Məryəm. Tez yuxarı eyvana çıxdı. Gözlərinə inanmadı. Zərnişan balaca qızın-qulluqçunun saçlarını əllərinə dolamışdı. Qız havadan asılı qalmışdı. Burnundan qan tökülürdü üst-başına. Gözlərinin gildir-gildir yaşı da qana qarışmışdı. Eşitməsinlər deyə, batıq, boğuq bir səslə gizli-gizli yalvarırdı:

– Öldüm, vallah, öldüm, incidir, dözə bilmirəm axı! Mən neyləmişəm?

Qapının ağzında dayanmış Məryəmi hər ikisi gördü:

– Neyliyəcəysən, ay yetim, daha yıxılmısan, niyə ağlayırsan, dur itil üz-gözüvü yu da! – Bu, Zərnişan idi.

---

[22] Qizə - ay qız

[23] Səğir - yetim

– Hə, hə, Məryəm xala, yıxılmışam, bərk yıxılmışam, yaman yıxılmışam, bax, buram da sancır, – deyə köksünü göstərdi. – Məryəm xala, vallah, ağlamıram, soğan soymuşam, soğan yaşardır gözlərimi. Ağrıyır, yaman ağrıyır buram, bax bura. – Bu da qızcığaz idi, yanıqlı-yanıqlı ağlayırdı.

Divan tutulmuşdu ona, amma danırdı. Məryəm donub qalmışdı. Nilufər əlləriylə üzünü qapayıb divara çevrilmişdi, hönkür-hönkür ağlayırdı.

Sarsılmışdı Məryəm bu mənzərədən. Sonralar məlum oldu ki… Sonralar bir də məlum oldu ki…

Sonralar məlum oldu… məlum oldu… məlum oldu…

Sonralar məlum olanları Məryəm nə dilinə gətirdi, nə də kimsəyə nəql edə bildi. Bildiklərini elə-belə ürəyindəmi gömdü və nə üçün?!

Bir də bəzi kiçik günahları varmış bu kiçik qızcığazın. Məsələn, gecə yerinə girənədək oturmağa ixtiyarı olmayan bu "yetimçə" ayaq üstə mil duranda hərdənbir mürgüləyirdi.

Sonralar məlum olub söylənəsi mümkünlərdən biri də bu idi ki, toyuğun başı ilə tullanası ayaqları ən ləzzətli yeməkmiş bu evdə. Çünki "hər başda bir ağıl, hər ayaqda bir nağıl" varmış. Bu, Zərinin dilinin əzbər şüarıydı. Və həmən bu "ağıllı" toyuq başı ilə "nağıllı" toyuq ayaqları bu "yetimçənin" ən ləzzətli yeməyiymiş.

Bunu da Xanbikə arvad tez-tez deyərmiş ki, "bəs qız uşağı ki var ha, bir tikə yedi, bəsidi, sonra bəyənməzlər onu, diyərlər, bəs filankəsin evindəki filan qız qarınquludur".

Yetim Qrişa düşdü yadına. Onu uşaq evinə "şeytanlayarkən", bir-iki qurtdumurtdu qonşu üzgözlərini turşudub demişdilər: "Nöş belənçiy əliyib balam bu Qumralın qızı! Balam, hər nə! Övladı sayılırdı da bu uşaq bu adamın. Döyürdü də, söyürdü də, çörəyini ki verirdi, balam! Ey bari, bu nə hoqqadır, bu qız çıxartdı?"

Bəli, yadına düşdü. İnsafən, "mürdəşir Marusya" Qrişanın başına nə bəlalar gətirsəydi də, ancaq çörəyini kəsməzdi. Qrişa hərdənbir oğurlanıb məhəlləyə uşaqlarla şumaqədərdənzaddan oynamağa çıxanda belə, Marusya kiçik, dar qapılarından başını dalana çıxardıb nazik, cır səsiylə gücü gəldikcə qışqırırdı: "Hrişa, Hrişa, stupay domoy, uje pora poobedat" və s.

Sən demə, bu Marusya da Zərnişandan yüksəklikdə dururmuş bu yarımçıq insanpərvərliyiylə.

* * *

Məryəmin anası tez-tez deyərdi: "Var, hər gecənin bir gündüzü var", hələ o vaxtlar, baldızı və baldızı qızı onun ətrafında at oynatdıqları vaxtlar, o həmişə susar, beləcə öz qəlb ağrılarını nə kimsəyə bildirər, nə də balalarına sezdirərdi. Adət etmişdi ana həmişə bütün yükü çiyinlərinə götürməyə və bütün iztirablarına baxmayaraq, hər hansı ümüdləsə yaşayar, sakitcə köks ötürüb deyərdi: "Var, hər gecənin bir gündüzü var. Vallah, var, billah, var, simavallah, var!"

Qumral ana sadəlövh, avamtəhər idi, amma savadlı, sözlü-söhbətli idi. Yerdən-göydən xəbərdar idi. Allahın ver günü bir çeşməyi olardı, bir də təzə qəzet və jurnallar. Bir də balaları və onların ağ günə çıxmaları üçün əlindən gələn qayğılar…

Günlərin bir günündə belə bir söhbət olmuşdu Zərnişanla ana arasında. Deməli, yavaşcadan özü üçün möhkəm inandığı bu atalar sözlərini təkrar edirmiş, Zərnişanın qulağı alır bu sözləri. Bir qaşı aşağı dartılı, o biri yuxarı, xırdaca gözləri iynənin ucu boyda büzülü, alt dodağı irəli dartılı, əlləri belində, sinəsi qabağa:

– Bura bax, daydosti! Bu nə gecədir, hansı gündüzdür, sən belə bizim bostanımıza bu qədər daş atırsan?

Ana fikir verməyib, əl-ayaqlarına dolaşan uşaqlarına:

– Gedin, çəkilin hərəniz öz küncünüzə. Dərslərinizi oxuyun, siz belə işlərə fikir verməyin.

Zərnişanı od götürür:

– Ay daydosti, nə yapışmısan bu uşaqlarin boğəzindən, oxuyun, oxuyun! Ay- hay! Qizə, oxumuşam bəyəm, kiloynan daş-qaşım var? Uşaqlarına Allah-taaladan bəxt-tale, bəxt-tale istə.

– Bəxt-tale! Bəxt-tale! – deyə Qumral ana bir-iki dəfə təkrar edir və yenə astaca:

– Bəlkə, doğrudan da, bəxt-tale başqa şeydir, bir sirdir, möcüzədir? Olmasaydı…

Olmasaydı, niyə gözəllər gözəli Nərminə… niyə özü gözəl, sözü gözəl Nigar, ilanla dil tapıb danışan Roza… Niyə taleləri onların yanından ötüb də keçdi? Bəlkə, bu, tale deyildi. Elə-belə bir acı pay idi ki, ömürlərinə ilişib qaldı. Bəlkə, onların da səadət tikələri varmış və Allah onların səadət tikələrini necə olubsa, götürüb səadətə layiq olmayanların boğazının içinə keçirib səhvən? Bəlkə, Allah bir vaxtlar insanlara bəxt bölgüsüylə məşğul olanda əl tərəzisindən deyil, elə-belə, bu indiki enliboğaz mağaza tərəzilərin-

dən istifadə edib? Doğrudan a, niyə belə olur bu dünyanın işləri?

Bu bəxt-tale məsələsi Məryəmi də məşğul etdi. Məryəmin başından çox şeylər fırlandı, keçdi. Gəldi düşdü yadına "Fırtıqlı Elaza". Vay səni! Nə bədəncəl, nə bədheybət, nə çirkli, nə çirkin qız idi bu qız, özü də gicəsula[24]. Dərs bilməzdi, böyük-kiçik bilməzdi, yarıaçıq qalan ağzından su axardı. Orta məktəbdə oxuyurdular. Yazıq Tanrının sağ qolu həmişə ağrılı olardı onun dümsüklərindən "Ayza, ayza, qoluvu bir az da o yana çək, köçürdüm də, ağəz!" Köçürtdü, köçürtdü, burnunun suyu ağzına, ağzınınkı qoluna axa-axa. Üst-baş vaveyla, uşaqlar əlindən şəhid böyüdü.

Böyüdülər. O da, Tanrı da. Tale hərəsini bir səmtə saldı. Gərdiş elə dövr etdi ki, bu səmtin biri xoşqılıqla əsdi, biri…

Tanrı böyüyüb, Məryəm olmuşdu, ərə getmişdi. Amma gətirməmişdi Məryəminki. Taydəyişik ayaqqabıydılar: o və əri. Toy gecəsində Məryəm anasına pıçıldamışdı:

– Ana, qurban olum, gəl incimə məndən, mən sənin təkid etdiyin o gəlinlik paltarın əynimə almayacam, başıma gəlin fatası qoymayacam. Çox ağırdır mənimçin. Yalvarıram. Daha o barədə xatırlatma, ana!

Ürəyində gizli nisgili vardı Məryəmin. Hamıdan gizli o əlçatmaz gənc oğlanı düşünürdü.

– Bəs niyə nişanlandın, Məryəmim? Səni ki güclə vermədim?

– …

– Niyə məni kövrəldirsən belə? Sevmədən yaşamaq dəhşətdir axı! Niyə sən belə etdin, mənim ilkim, nübarım!

– Sənə kömək etmək istədim. Səninçin ağır idi, ana! Beş uşaq. Sən isə tək. İstədim çiyinlərinin yükünə dayaq olum.

Məryəm atasının qəfil ölümünü xatırladıqca dözümsüz olurdu və çalışırdı ki, nə anası, nə də bacı-qardaşları böyüksüz, başsız olduqlarını heç vaxt hiss etməsinlər. Məryəm gecəsini gündüzünə qatmışdı. Oxuyurdu da, işləyirdi də. İnstitutdan aldığı əlaçı təqaüdünü, maaşını bütünlüklə anasına verərdi. O da bir vaxt ərköyün böyümüşdü. O da firavan yaşamışdı. Bilməzdi dünyanın əyər- əskiklərini. İndi anlayırdı ki, şıltaq, qayğısız günlər bir əlçatmaz yüksəklik kimi get-gedə uzaqlaşmaqdadır.

Əri yaxşı ailədəndi Məryəmin. Özlərinə görə güzəranları vardı. Bir yerdə yaşayırdılar, böyük bir ailədə. Əri də onu çox sevirdi, lap çox. Di gəl ki, axşamları öz otaqlarına çəkiləndə heç bir mövzu-filan tapa bilməzdilər. Məryəmin söhbətindən də belə məlum olurdu ki, əri yaxşı adamdı, di gəl ki, bir "azca" içməyi vardı, bir "azca" davakarlığı, bir "azca" da deyingənliyi. Oxuyanda da ancaq "Sovetski sport" qəzeti oxuyardı. Bütün bunlarla bərabər, yaxşı adamdı, təmiz adamdı.

Ulduzları barışmadı, tale o deyənnən getmədi.

Sonralar Məryəm heç zaman xatırlamadı olub-keçənləri. Heyifslənmədi də. Bircə bunu başa düşdü ki, onda ərinə qarşı nifrət hissi də oyanmamışdı. Və bunu da başa düşdü ki, bu iş namuslu-qeyrətli anasına dərd oldu, balaca ciyərparası nisgilli qaldı bu dünyada.

Məryəm belə düşünməmişdi öz gələcək həyatını. O, çox incə təbiətli idi. Arabir haqsızlığa qarşı döyüşkənliyini və duzlu-yumorlu söz-söhbətini qarışdırmamaqla, qadınlıq onda daha möhkəm yer eləmişdi. Həmişə deyərdi ki, sevdiyim oğlana ərə gedəcəyəm, sonra onunla lap qəbrə də gedəcəyəm. Çoxlu, lap bağça müəllimlərinin yanına salıb, özüylə küçələri gəzdirdiyi uşaqların sayı qədər uşaqlarımız da olacaq. Amma… Nə bileydi Məryəm ki, hələ qarmaqarışıq düyünlər qabaqdadır?

Lap sonralar Məryəm ikinci dəfə ərə getdi. Məktəbdə işləyirdi, gözəl-göyçək balalara dərs deyirdi. Bu balalar onu sevirdilər, o da bu balaları.

Bir gün sinfə orta yaşlı bir oğlan gəldi, redaksiyaların birində jurnalistdi. Oğlan içəri girər-girməz tutulmuşdu nədənsə. İlk baxışdan sonra Məryəmin üzünə baxmadan dedi:

– Mənə sizin haqqınızda yazmağı həvalə ediblər. Mümkünsə, dərsdən sonra qalın, mənə bir neçə cavab lazımdır.

Məryəm dərsdən sonra qaldı. Oğlan onun cavablarını yazdı, amma sonralar yenə gəldi. Yenə gəldi və günlərin bir günü də qabağını kəsib dedi ki, bəs çətin olur ona Məryəmsiz keçən günlər. Məryəm ömründə heç kimi belə öyür- çöyür etməmişdi ürəyində, bircə o qızlıq çağlarındakı o əlçatmaz oğlandan başqa. Nə isə gecələr də, gündüzlər də bu jurnalist oğlan barədə düşünməyə başlamışdı. Alt-üst olmuşdu yeknəsəq, eyni rəngli həyatı. Oğlan təkrar bir də gəldi, soyuqda gəldi, qarda gəldi. Və bir qarlı gecədə də görüşdülər.

[24] Gicəsula – gicbəsər

Məryəmin otuz yaşı ancaq olardı. Oğlan da elə o yaşda görsənirdi, amma deyəsən, ondan bir-iki yaş kiçikdi, uca boyu vardı, yekə əlləri. Qulaq oxşayan güclü səsi, yapışıqlı siması.

Məryəm gözəlliklə yaşamışdı yaranışından. Gözəllik, incəlik onun həyatının gövdəsiydi. Yaman sevirdi Məryəm. Ömründə belə sevməmişdi. Ağlını alan bu yekə əllər onu bir dev gücüylə qucaqlayar, bağrına basardı. Oğlan tez-tez deyərdi: "Səni mənə Allah göndərib, Allah da alacaq…"

Amma Allahın hökmündən də qüvvətli hökmlər olurmuş bəzən. Bir neçə il sonra onu oğlandan heç də Allah deyil, bir arıq, uzun, əlləri və ayaqları, bəlkə də, oğlanınkından da yekə bir qarayanız qız aldı, necə oldusa…

Bəlkə də, bu qız babat idi, ancaq Məryəmə çox çirkin görünürdü. Bəlkə, heysiyyəti tapdalandığına görə düşünürdü ki, bu belədir?! Və Məryəm fikirləşirdi ki, bu qıza da Allah tərəzi məsələsində, deyəsən, güzəşt edib.

Yaxşı, sevgili günləri var idi ki, ömrünə ilk və axırıncı dəfə yazıldı Məryəmin. Və Məryəmin ömrünə bu oğlanla əlaqədar yaxşılı-pisli çox şeylər yazıldı, amma Məryəm onlara bir daha toxunmadı.

İndi bu oğlan Məryəmin kövrək hisslərindən, od tutub yanan duyğularından, qaranlıq, yarıçılpaq, tənha gecələrindən, qarmaqarışıq yuxularından boylanırdı.

Nə qədər sual və nida işarələri ötüb keçərdi Məryəmin böyründən. Bir zamanlar dil-dil ötən, çevik, heç nədən qorxmayan bu mərdanə qızcığaz – Tanrıca indi niyə belə ürkək olmuşdu? Nədən üzünü hamıdan gizlədirdi. O ki oğurluq etməmişdi? Küçələrin ən səssiz, adamsız tin və dalanlarıyla addımlayan bu qadın nəyin əzabını çəkirdi, görən? Niyə bu sual və nidaların yanından cavabsız ötür, susurdu?!

Olub-keçənlərə heç vaxt qayıtmazdı Məryəm. Amma bircə günü – o qarlı qış gecəsini heç vəchlə ovundura bilmirdi.

Bərk qar yağmışdı. Xırda-para damlar da qarın altında qalmışdı.

Pəncərə şüşələrindən küçəyə süzülən işıq parçalarında qar dənəcikləri par-par parıldayırdı. Körpəsi yatmışdı. Məryəm oyaq idi. Uzun gecəni yata bilmirdi. Əllərini pəncərənin soyuq, bumbuz şüşələrinə söykəyib, bu bəmbəyaz, sakit aləmə tamaşa edirdi. Lopa-lopa yumşaq qar ələnirdi bu ağappaq gecəyə. Elə bil şəhər süd gölündə mürgüləyib yatırdı. Bu səssizlik içindən Məryəmin qulağına bir səs gəldi: "Üşüdüm soyuqdan, yoruldum bu küçələri avara gəzməkdən, vallah, belə getsə, donub buz parçası olacam, üstümə qar ələnəcək, sabah uşaqlar da halsız-xəbərsiz üstümdən xizəklə sürüşüb keçəcəklər".

Qulaqlarını qapadı bərk-bərk. Qapadı. Bir zamanlar beləcə qarlı bir qış gecəsindən süzülüb içəri keçən bu sözləri, ona tanış gələn bu səsi qulaqlarında əbədi saxlasın deyə, ömründə ilk dəfə böyük bir qısqanclıq hissiylə möhkəm qapadı qulaqlarını. Ki, bu səs heç kimə, heç hara paylanmasın. Bu səs axırıncı səs olaraq həmişəlik onun olsun, ilişib qalsın qulaqlarında.

Qəribə cür toxundu ona bu qarlı gecə. Və nədənsə Məryəmə elə gəldi ki, həmin gecə oğlan da xatırlamışdı onu, çarpayıda mışıl-mışıl yatan körpəsini və tərəzidə bəxti yaxşı gətirmiş arvadını unudaraq xatırlamışdı.

Səhərə yaxın yuxuya getdi. Yuxusu bəmbəyaz idi. Elə bil yuxusunun qapı-bacası yox idi. Lap gözlərinin qabağında çılpaq bir çinar yüksəldi. Məryəmə tanış gəldi bu çinar, tanıdı da. Onun tökülmüş yarpaqlarını görüb kədərləndi. Ona elə gəldi ki, çinar üşüyür, ya da uzun bir yuxuya gedib. Əllərini uzadıb yan-yörəsində gəzdirdi ki, bu tanış, doğma çinarcığazını bürüməkçün, bəlkə, bir şey tapa. Lap özüylə bürüyə. Bir anlıq beləcə birlikdə bürünüb qalalar istinin qılığında. Amma nə edəydi ki, hər yer soyuq, bomboz və bəmbəyaz idi. Bu aldadıcı yuxularında da o deyənlə getmədi tale...

* * *

Ağır iş idi Məryəmçün həm kişi, həm də qadın vəzifəsini yerinə yetirmək. Ev-eşik qayğısı, bazar, uşaq, məktəb, cürbəcür məişət qayğıları ömründən yavaş-yavaş qoparırdı Məryəmin. Saçlarına ara-sıra dən də düşmüşdü. Amma yaşamaq Məryəm üçün bir başqa nemət idi. Ləzzət alırdı hər gün doğan günəşin ev- eşiyində oyanmasından, yeganə balasının işıqlı, ağıllı gözlərindən, yaxşı insanlarla bir göyün altında yaşamasından, işindən, peşəsindən. Naşükür deyildi Məryəm, əsla!

Hələ kəndə yola düşməmişdən bir neçə gün qabaq, bir bazar günü hər iki əli zənbilli bazardan gəlirdi. Tərəzidə bəxti gətirənlər isə evdə oturub bazarlıq özü gəlib çatmamış, onu necə həzm edəcəkləri barədə düşünürdülər. Trolleybus

gözləməli oldu. Basabas salan kişiləri gözlədi, onlar mindilər, sonra o da öz zənbillərini qaldırdı trolleybusa.

– A-a-a… Ağəz, sənün adun nədü? Yadımdan çıxdı şöğərib ki? – deyə sinli bir arvad bərkdən-bərkdən danışdı. – Ağəz, səniynənəm, e! Gijdərüvə şükür, İlahi, bu yatıb ki? Ağəz!!!

– Mənimləsiz? – dilləndi Məryəm. – Bağışlayın, fikirliydim, eşitmədim. Tanımadım sizi.

– Ağəz, nöş tanımadun, ağəz! Begəm bizdə ya, sən a, az olmusan? Azz, bağımızın yəxşi, sarı əncilüzümünnən heç yeməmisən? Pis də çıxmasun, sən dögüldün əncil ağacımızı yonub-töküb, qotur gününə qoyan, sora da digən ki, "pax -pax totya Pike takoy sladkiy incil?" – deyə əyilib Məryəmin zənbilindən bir-iki əncir götürdü və davam etdi: – A…a…a… – Əlini əlinin üstünə vurub, ağzına apardı. – Ey bari!!! Bu nödü almısan? Hamı gedər quş getirər, Şaqqulu beyquş getirər. Gedib pulu gör negə verib! Yandım, töküldüm. Bu qabla-qübla əncirlər nödü almısan? Kişivin öyün yıxdun ki, ağəz?

Məryəm pörtmüşdü. Arvadın ağzı yumulsun deyə, tələsik dilləndi:

– Hə, xala, tanıdım sizi, Elazanın anası deyilsiz?

– Hələ özüdü ki var.

– Elaza necədir?

Arvad elə bil buna bənd imiş:

– Soruş da, nöş soruşmursan, beyəğdən? Yazıq Elazam, bədbəxt Elazam! Bu çeçələ barmağı ki, yoxdu, hə, ora bir balaca yara çıxıbdü. Əri də özünü öldürür, digir ki, dünyanı dağıdaram səninçün. Hə, çox istigir əri onu. Nə başuvu ağrıdım, ağəz. Getirib aparıb Karlıvı Variyə.

– Ora neyçün?

– A… pərvərdigərə, bu heç nə bilmir ki, ağəz? Balam, Karlıvı Vari bilmirsən nödü?

– Bilirəm, Pikə xala, soruşuram ki, ora niyə aparıblar, bir balaca yaraydı da. Onu elə burda bizim həkimlər də…

Sözü ağzında qaldı. Arvad:

– Əri böyük adamdü balam də. Destgahdü ye!!! Yeri dögül. Bir dəfə digərəm sənə, Allah qoysa…

Bəli, bu arvad həmən o "fırtıqlı Elaza"nın anası idi. O Elazanın ki, bu hadisədən bir neçə gün əvvəl ərinin maşınında Məryəmin yanından düz keçdi. Yəni ki, "mən atlıyam, sən piyada". Amma nə fikirləşdisə, dönüb qayıtdı. Başını maşının pəncərəsindən çıxardıb:

– Memi, privet! Kak dela, ağəz? Gəl otur, aparaq.

– Çox sağ olun, yaxına gedirəm.

Güc-bəlayla mindirmişdi onu maşınlarına və söyləmişdi ki, hələ bu harasıdı, ərinin hökumət maşını da var, qulluqçusu da var, daha nələrisə var, var, var... Bəs qiyamət yaşayır. Üstəlik, bunları da deməyə macal tapmışdı ki:

– Bu nödü, ağəz, geymisən eynüvə? Hanı sənin o çayda balıq yan gedər vaxtlarun? Ağəz, nöş belənçiy xarab olmusan? Bəlkəm, sənə cadu-zad eləyiblər? Bura bax, indi sənə bir söz diyəciyəm, amma gərək öz aramızda qalsın, – deyə başladı pıçhapıçla danışmağa ki, əri başa düşməsin:

– Denən, Ətağa cəddi, heç kimə demərəm?

– Yox, demərəm. Ancaq istəyirsən, heç demə.

– A! Sənə yazığım gəlir e, diyirəm. Başuvu əy mənə tərəf, qulağuvu ver bura. Hə, mən bir kənd tanıyıram, orda bir ocaq var. Adına "Cil ocağı" deyirlər. Bütün cadu-piltələri açdırmaqçün, belə cadunun özünü elətdirməyçün, soram, tilsimünzadun oldu, pozdurmaqçün nəzir aparırsan ora. Bütün niyyətüvə çatırsan. Eşitdün? Diyim hardadı o ocaq? Get tilsimüvü açdır, ağəz də. Mütləq açdır. Tilsim bəla şeydir.

– …

Məryəm heç bir cavab tapıb deyə bilmədi Elazaya, cadu-piltəli "xoşbəxt Elazaya". Bircə bunu fikirləşdi ki, nə yaxşı ki, "Elaza səadəti" heç bir zaman ona toxunmadı.

* * *

Tilsim! Vardımı tilsim! Vardı, vardı. Yaxşı insanları Məryəmə bağlayan tilsim! Sevgi, məhəbbət tilsimi! O, bu tilsimi açdırmaqçun heç bir ocağa gedə bilməzdi. Əksinə, bu ecazkar tilsimdən qurtarmamaqçün hansı tilsimlərdə ilişib qalmadı Məryəm?

"Cil ocağı!" Tanış idi Məryəmə. O gün Zəri qarğış töküb demişdi ki, bəs "kim mənim qulluqçumu öyrədir, ağzı gəlib yapışsın başının dalına. "Cil ocağına" niyyət eləmişəm!"

Elə həmin gün də Zəri, Güli, Xanbikə, bu balaca qız və Məryəm "Cil ocağı"na getmişdilər. Bəli, Məryəm də qoşulmuşdu bunlara. Məryəm tilsimlənmişdi. Ancaq Məryəm tilsim açmağa getmirdi. Tilsimlənib ardıyca getdiyi bu balaca qızın intizarından, nigarançılıqdan heç vəchlə yaxa qurtara bilmirdi.

Bir neçə gün bundan qabaq qızcığaz yaman xəstələnmişdi. Ardı-arası kəsilməyən öskürək onu lap əldən salmışdı. İndi onu bir nazik, yamaqlı, nimdaş paltarda, ayaqyalın "Cil ocağı"na aparırdılar. Aparırdılar ki, nəzirlərini daşısın. Aparırdılar ki, ayaqlarından çıxaracaqları ayaqqabılara göz olsun.

Qabaqda Xanbikə, sonra Zəri, sonra Güli, sonra Məryəm, sonra da… əlində yekə boğça tutan bu balaca qız… Gedirdilər. Evlərindən bir neçə kilometr aralı məsafəni piyada getməliydilər. Dinin müqəddəs qanunu bu ocağa ancaq piyada getməyi müqəddəs əməl sayırdı. Miniklə getmək günah sayılırdı. Yolun tən ortasında Güli yoruldu, dabanlarının sızıltısından şikayət etdi. Allahın müqəddəs evinə yollanan bu "karvanın" ən axırda gələni, Allahın yetim bəndəsi o balaca qızcığaz Gülidən bir qarış hündür boyunu qatladı Gülünün altına və aldı onu qabırğaları sümük-sümük çıxmış belinə. Düzəldilər yola.

Bir çöllü-biyabanla az getdilər, üz getdilər, gəlib çıxdılar mətləblər yetirilən "ibadətgaha". Uzaqdan öz uzun, sonu görünməyən pillələri ilə nəzəri cəlb edən məbəd çox həşəmətli idi. Yaxınlıqda kənarları oyulmuş, sonradan sarı palçıqla şirələnmiş bir çala vardı. Ayaqqabılarını soyundular, tökdülər ora. Məryəm də. Beləcə ayaqyalın bir neçə addım da getdilər. Məryəm də. Məbəddən aşağı enən uzun pillələrin üstünə çıxdılar. Xanbikə örtməyi artıq çoxdan tərgitdiyi ağ güllü, çit çadrasını qoltuğundan çıxartdı. Gözlərindən başqa hər yerini bürüdü. Dümağ, uzun bir vücud bir neçə dəfə əyilib-durdu, öpdü bu daş pillələrin hər ikisini. Hər iki qollarını Allaha uzatdı və dodaqaltı dua oxumağa başladı:

– Pismillahi rəhmani rəhim, ərrəhmani rəhim! Malikən yumiddin, ya kəənnə budi və ya kəənnə mustağim. Ehtina surətən mustağim, surətən ləzinə, ənəmtə əleyhim, qeyril məğzubi əleyhin, valəzzə-a-a-a-lin! – ayinini özü bildiyi kimi söyləyib qurtardı, əlini ehtiyatla üzünə çəkdi və dedi:

– Qurani - kəbir buyurub. Salavat çəkin üzünüzə, yavaş-yavaş düşün aşağı.

Yenə qabaqda Xanbikə, sonra Zəri, sonra Güli və sonra Məryəm sıra ilə yollandılar üzüaşağı. Təkcə qızcığazdan başqa. Bütün fikri bu çöllü-biyabanda tənha qalacaq qızcığazın yanında olan Məryəmin ürəyi ovulmuşdu:

– Qızım, balacam, sən də gəl! – demişdi.

– Vuy, vuy, vuy! Onun adın çəkmə! Sən neynirsən, heç bilirsən, necə günah edirsən? – Zəri dilləndi.

Artıq pillələrin yarısını düşmüşdülər. Məryəmin ayaqları getmirdi. Onun ürəyinin yarısı arxadakı pillələrin başında məlul-məlul dayanmış o qızcığazda idi.

Sərin külək qopdu. Çiskin yağış başladı. Külək pillələrin başında dayanmış qızcığazın nazik, çit paltarını əsim-əsim əsdirirdi. Məryəmə elə gəldi ki, qızcığaz titrəyir.

– Qorxma, balacam, gəlirəm! Mən bura onsuz da səndən ötrü gəlmişdim. Səni heç vaxt tək qoymaram, mənim balam!

Bu müqəddəs məbəddən zəhmli bir səs eşidildi:

– Məryəm! Nə etdiyini başa düşürsən? Kimin dalınca gedirsən? Onun ayaqları buralara dəyməməlidir. Bu ocaq elələrini qəbul eləməz! Bu, Allah ocağıdır. Cil ocağı, Cil! Başa düşürsən? Bura mundarları götürməz!

O, geriyə baxmadan üzüyuxarı qalxan pillələri sürətlə addımlayırdı. Allahın ocağından yenə səs eşidildi, uzun, lap uzun bir səs. Zərnişandı, paklıqla murdarlığın arasında çırpınırdı:

– Məryəm! O ki bicdir! Bic! Bicdir, bildin? O, qanunsuz doğulub. Onun anası Allahın, qanun-qaydanın əleyhinə çıxıb. Allah evi elələrini götürməz! Getmə onun dalınca, qayıt! Bicdir, Bi-i-c-c-c. Bi-i-iccc!

Qaranlığa enən bu pillələrin tən ortasında büt kimi səssiz-səmirsiz dayanmış Məryəm donmuşdu.

Bir səs gəldi qulağına:

– Batırma özünü günaha, ay qız, Məryəm! Sən ya dəlisən, ya da babı!

Bəlkə, ətəkləri qatlanmayan bu ucsuz-bucaqsız göylərdə, doğrudan da, kimsə oturmuşdu və bu an o elə ədalətliydi ki, heyrətdən donub qalmış Məryəmin özünə gəlməsi üçün həmin vədə dəhşətli bir yağış yağdırdı. Şimşəyiylə, dolusuyla, küləyiylə birgə. Və Məryəm bu uğultuya dərin yuxudan ayılmış kimi oyandı. İndi pillələri üzüyuxarı qaçırdı, qaçırdı, qaçırdı, qaçırdı. Güclü yağış üz-gözünü, saçlarını yumuşdu, yuyub dağıtmışdı. Qızcığaz isə pillələrin hündür təpəsində bir zəif sarı payız yarpağı kimi yağışında çimirdi o "ədalətli" göylər yiyəsinin.

Məryəm yerə sərələnmiş qızcığazı aldı qolları üstünə, bu dəhşətli yağışdan da artıq yağışını yağdırdı göylərə:

– İlahi! Niyə bəndələrin ondan üz döndərib? Hanı bu körpəciyin anası! Taleyin hansı daşına vurub onu bu hala saldın? Niyə bunu belə səfil edib yuvasından didərgin etdin?

O, qolları üzərinə bihuş sərilmiş, Allahın "gözdən düşən biçarə bəndə"sini bağrına basmışdı. Üzündən, gözündən öpürdü. Duamı edirdi, qarğışmı yağdırırdı? Hara, kimə və niyə?!

Allahı sevən allahlılar aşağıda, məbədin içərilərində Allaha ibadət etməkdə davam edirdilər. Bir babı bəndə isə göylərin bu dəli yağışından içərək, sərxoş olmuşdu, sərxoş!

* * *

O zamanlar – Məryəm Tanrıca olanda allahlı Xanbikə yazıq Xoşqədəmi qabağına qatıb qovhaqov qovanda incimişdi sevimli bibisindən və şappadan bibisinin üzünə demişdi: "Sən daşürəklisən, bibi!" və küsü saxlayaraq tam bir yayı o yerlərə ayaq basmamışdı. Onda Qumral ana dönə-dönə başa salmışdı öz Tanrıcasına ki, "sən ancaq öz uşaq işlərinə qarışa bilərsən, çünki uşaqsan, hər şey üçün də bibidən küsməzlər. Bibini sev, bibi yaxşı şeydir və hər kimin də bibisi ola bilməz!"

Xanbikənin öz fikirləri vardı müxtəlif illərin müxtəlif çocuq-mocuq qulluqçuları haqqında da, öz ərköyün balası Zəri haqqında da. Deyərdi: "Qız uşağının ruzusunu gərək Allah versin, qız uşağı nədi, oxumaq nədi? Oxumaq, dərs, elm qız uşağını payimal edər, rəngdən çevirər, əqlini başından alar".

Zəri haqqında isə deyərdi ki, üçüncü sinfi ki qurtardı ha, atasıynan Fitilbörkə oxumağa gedəcək. Deyərdi ki, Zərinin geydiyi paltarları bircə şah nəslindən olan qızlar geyinə bilər. Torqsin–morqsin[25] nə karədir ki, Zəri oradan alınma paltarlar geyinsin?!

Zərnişan hər gün süddə çimib, ipəklə qurulanıb, çin yorğan-döşəkdə yatarmış. Ev qulluqçuları, qaravaşları qabağında əsim-əsim əsərmiş. Bəli, bu harınlıq çox-çox bundan qabaq Zərnişanın qanına yerimişdi.

Zərnişanın bəndələrdən bir neçə sirri vardı ki, onlar, bəlkə də, sirr olaraq qalmışdı. Ancaq bir sirri də vardı, bəndələr bunu bilirdilər. Bəndələrin də ondan gizli bir sirri vardı, amma Zərnişan bundan xəbərsizdi. Di gəl ki, onun bu faş olan sirrini "çoxbilmiş" bəndələr hardansa bilib öyrənmişdilər. Bilirdilər ki, "kiloyla qızıl payı" olan Zərnişanın övlad payı yox idi.

Amma necə oldusa, çox intizardan sonra evdə bir qız uşağı peyda oldu. Lənət şeytana, sirr açmayan qadir Allah bunu haçan salmışdı bu bəndələrin arasına? Bəlkə, bəndələr "pis bəndələr" idi, paxıl və ifritə bəndələr idi ki, bekar qalıb qara yaxırdılar, tutdu-tutmadı?

Allah var eləsin, totuq-motuq qız olsun, o da bəşər övladıdır. Qoy olsun, qayğısız-filansız böyüsün. Təki amansız böyüməsin, harın böyüməsin. Həyatı, insanları sevsin, anasının cansız daş-qaşlarının hərisi olmasın, yazıq olar bu körpə bala, günahsız bala!

Körpə böyüdü. Sonralar ləzzət alırdı evlərindəki bu "yetimçə"nin üzünü səhər -axşam şappıldatmaqdan, bu tifili təpikləməkdən, "konfet oğrusu", "pamador oğrusu" deyib cırnatmaqdan. Ancaq haradasa ağıllı uşaq idi. Bir dəfə "yetimçə"yə dedi:

– Qını, Qını! Çül sənün başuva, məttəvə də detmirsən, böyüyüb hampal olacəysən.

Məktəbə getmirdi Qını. Yazıq uşaq, sən bir adına bax! Qınıq, Qını, Qındıca… Qənirə idi əslində adı bu "yetimçə"nin. Amma çoxdan unudulmuşdu bu ad bütün ətrafdakılar tərəfindən, hamı elə onu "Qını", "Qınıq", "Qındıca" çağırırdı.

Qınıq o qədər cındır-mındır geyinərdi ki, lap küçə qaraçılarına oxşardı. Başı da həmişə bürülü olardı düz qaşlarının üstündən. Saçları qaraydımı, sarıydımı – görən olmamışdı. Əməlli-başlı ev qulluqçusuna oxşamaqdan ötrü, görünür, sadəcə olaraq belə bir görkəm almalıymış. Üz-gözü yaman çirkli, cızmaqara görsənirdi. Yox, insafən, səhərlər bir-iki saniyə su çırpardı üzünə, vaxt tapanda. Nədənsə yenə də üzündə elə bil mürəkkəb yazıları olardı. Sonralar yenə bəndələr öz aralarında pıçıldaşmışdılar ki, yazıq tifilin üzündəki cızmaqaralar ömürlük qalası olacaq, çünki bu Zərnişanın uzun dırnaqlarının şəkliydi ki, çəkilmişdi bu tifilin üzünə.

Ac qalmışdı bütün günü, zər-zibalı Zərnişanla şişman Paşa qonaq gedəndə, "çaşıb" qapılarını bağlayanda və yazıq Qındıcaya yemək qoymağı "unudanda". Onda bu "əyyar" aclığa dözə bilməyib, alt mərtəbədəki mətbəxdən düz ikicə monpası konfet və üç pomidor oğurlayıb yemişdi.

Vay sizi, pis bəndələr! Nə böyük söz-söhbət olmuşdu "yetimçə"nin bu əhvalatı?!

[25] Torqsin - 1950-60-cı illərdə məşhur geyim mağazası

Yetim Qınıq! Yetim Qınıq!

Bir vaxt bu ikicə konfet və üç pomidor üstündə səni heyva ağacına sarıyıb kəmərin güclü zərbələriylə ürəyin gedib, yerə sərilincəyədək döyəcləyən bu şişman Paşaya niyə tüpürmədin? Niyə haylamadın yaxşı bəndələri bu canavarın üstünə? Yaxşı bəndələr susmazdılar axı, vallah, susmazdılar...

* * *

İndi Məryəmi Qınığı necə tərk edib getməsi narahat edirdi. Qınıq ki balacadır, o hələ həyat haqqında bir o qədər də anlamır. Necə olacaq bunun işi? Gündə yorulmadan su daşımaq, paltar yumaq, ev süpürmək, söyüşlər, təhqirlər! Budurmu ona ömründə bir dəfə verilən uşaqlıq həyatı?

Gecələri "bəy", "xanım", "şahzadə" və qoca "xanımzadə"nin əl-ayağın yuyub yerlərinə saldıqdan sonra balaca, köhnə sökük-mökük bir nimdaşa uzanıb nazik örtük çəkərdi üstünə, yıxılıb yatardı "ev köpəyi" kimi düz qapının ağzında.

Anasını güclə xatırlayırdı. Anası qəflətən od tutub alışanda o, balaca bir qızcığaz idi, balaca! Atasını xatırlaya bilmirdi… Sonra qapılar…

Qapılar… yaşıl məxmər pərdəli qapılar, sarızər pərdəli qapılar, mərmər pilləli qapılar…

Axırıncı qapının qalın pərdələri arxasında isə Paşa və Zərnişan dayanmışdı.

Unutmuşdu hər nə var... Unutmuşdu yaddaşından zəif-zəif boylanan anasının yaşıl gözlərini, titrək səsini, qara, qıvrım tellərini, cavan, tarım bədənini. Xəbərsizdi anasının sevgili günlərindən və bir bəlalı sevginin başına gətirdiyi sərgüzəştlərdən. Bilmirdi ki, anası - cavan, gözəl, duyğulu, həssas və xeyirxah anası bir sevgiyə düçar oldu və bu sevgi bir hörümçək toru olub anasının bütün ömrünü uddu. Və heç zaman bilmədi Qınıq ki, o, nütfəsi sevgidən mayalanmış, sevgidən yoğrulmuş günahsız bir bəşərdir.

* * *

Gecəyarı idi. Hamı yatmışdı. Məryəmin yuxusu ərşə çəkilmişdi. Yerindən dik durdu və düz Qınığa doğru getdi.

Qınıq üstüaçıq yatmışdı. Məryəm ay işığında bir xeyli tamaşa etdi ona. Əlini başına qoydu. Anlaya bilmədi, öz əli istiydi belə, ya Qınığın başı od tutub yanırdı. Qınıq uzun gündüzün yorğunluğundan daş kimi yatmışdı. Əyilib üstünü örtdü, qayıdıb yerinə girdi.

Yata bilmirdi. Fikir onu çulğamışdı. Gedib uşaq evinəmi xəbər versin? Bəlkə, Nilufərinə bacı, özünə övlad etsin onu? Bəlkə… Bəlkə… Yox, Məryəm qeyrətliydi, bunu edə bilməyəcəkdi "canbir qohumlarına". Bəs nə olsun? Əgər doğrudan da, qeyrətlidirsə, niyə bu həngamələrə göz yumsun? Axı o nədən çəkinirdi? Bəlkə, qorxurdu? Yox, Məryəm əsla qorxaq deyildi. Namərd də deyildi. İlanı da görəndə ya başını əzərdi, ya yaralayıb buraxardı, onda da arxasıyca düşmən oyadardı, heç bu işdən də qorxmazdı. Qorxmur onlardan da Məryəm. "Yaralayıb buraxacam onları. Qorxma, Məryəm, qorxma! Sən ki hələ qız çağlarından cəsarətli idin! Yadındadır, o iki bıçaqlaşan dəliqanlı oğlanın arasına təkcə sən girmişdin? Kişi-mişilər kənardan baxırdılar. Onda sən həmişəlik qurtardın bu iki dəli-dolunu, birini ölümdən, o birisini cəhənnəm əzabından. Təpin bunlara, Məryəm! Utanma, de ki, canisiniz siz, fırıldaqçı varlılar, saxtakarlar, harınsınız siz!"

– Siz canisiniz, fırıldaqçı varlılar, saxtakarsınız, harınsınız! Nifrət edirəm sizə! Birdənbirə düşündüklərini son dərəcə qətiyyətlə söylədi, qışqırdı və təkrar daha nələrsə söylədi.

Özündən xəbəri yox idi. Bir zamanlar "Gic Tanrı" çağırılan bu Məryəm indi "Dəli Məryəm" olmuşdu bu gecə…

Şübhəsiz, hamı oyanmışdı və hamı matı-qutu çəkilmiş ona baxırdı. Qorxularından qımıldanmırdılar da. Məryəm xeyli sonra özünü yığışdırdı. Hürkmüş balasını və tir-tir əsən Qınığı görüb toxdadı.

İndi yanaqlarından sakit-sakit göz yaşları yuvarlanırdı. Güclə eşidiləcək bir səslə:

– Niyə belə edirsiz? Zalımlığı boynunuza almısız? Bəlkə, onun anası qaranlıq dünyadan əllərini sizə doğru uzadıb qışqırır, fəryad edir, deyir, toxunmayın bircə balama, sındırmayın sınıq qəlbini, günahsızdır balam! Axı siz Allahı tanıyırsınız?! Bəs niyə Allahlı hərəkət etmirsiz?

– Gəl, gəl içəri. Mən sənə əvvəldən demişdim ki, bu, başdan bir az xərəbtəhərdir. – Zərnişan ərini içəri dartdı. Sonra yataq otağının qapısından başını çıxarıb, yuxulu, kal səsiylə belə dedi:

– Sən də, qız! İtil köp mitülündə!

Mitilində büzüşüb yuxusu ərşə çəkilən Qındıca hey fikirləşirdi: "Axı bu qadın kimdir? Bu xala hardan gəlib çıxdı bura? Niyə o, bu qədər yaxşıdır? Bəlkə… Bəlkə elə anamdır o mənim, gözlərinin rəngi yaşa dolduqca maviləşib? Bəs onda saçları? Saçları? Eh! Nə olsun ki, Cəco

deyirdi ki, şəhərli qızlar saçlarını rəngləyirlər. Bəlkə, elə qaradır? Bəs niyə qıvrım deyil? Bəlkə, çoxlu-çoxlu darayıb, su vurub darayıb? Bəlkə, gecələr onun saçları qaralır, qıvrımlaşır? Bəlkə, gizlicə gedim baxım!"

Oğrun-oğrun, sürünə-sürünə Məryəmin yatağına yaxınlaşdı. Əvvəlcə diqqətlə baxdı. Sonra ehmalca əllərini onun saçlarına sürtdü. Sonra dodaqlarını Məryəmin yanaqlarına toxundurdu və ürkək-ürkək pçıldadı:

– Məryəm xala!

– …

– Sən də bunlardan qorxursan?

– …

O gecə Məryəm qızcığazı bərk-bərk qucaqlamışdı. Qınıq ömründə ilk dəfə idi ki, ağ, təmiz, yumşaq yorğan-döşəkdə, isti hərarətli, ana nəfəsli bir qadının qucağında yatırdı. Və bayaqdan bəri ürəyində bir söz dolanırdı. Üzmüşdü onu bu söz, ancaq heç vəchlə deyə bilmirdi o sözü. Yalnız indi, Məryəm onu bərk-bərk qucaqlayıb, saçlarından öpüb, nəvazişlərinə bürüyəndə ürəklənmişdi:

– Məryəm xala!

– Hə?

– Bəlkə, sən mənim anamsan?

– …

– Anamsan?

O, Qınığın bütün fəlakətini duymuşdu, əsim-əsim əsirdi. Ay işığında birinin yaşıl, o birisinin mavi gözləri parıl-parıl yanırdı və tilsimlənmiş kimi bir-birinə zillənmişdi.

* * *

Sonra həmən o fəryadlı gecənin sübhü açıldı.

Qiyamət hələ daldaydı. Zərnişan vay-aman eləyirdi:

– Biz ona axı neynürüy, balam? Onu parçalansın helə! Evimə qan salıb. Kim mənim qulluqçumu öyrədir belə, bax, bax bu ağzı – deyə gücü gəldikcə hər iki dodağını tutub dartdı, qıpqırmızı xoruz pipiyinə döndü, davam etdi: – Bu ağzı gəlib, belə yapuşsun başının dalına!

– Mama! Əbəlfəzi çağır. Qizə, mamalı, sənnən döyürə-ə-əm!!! Əbəlfəzi çağır də-ə… – qızı idi, əmr və təkid edirdi.

– Belə çağırrəm, o yana da keçərəm. "Cil ocağına" saçımnan bağlaram, "Babo ocağı"na kələğay aparram, "Seyid Mirzəylə Seyid Cəmal xəlifə"sinə gedib hər iki qardaşdan niyyət istərəm, "Maşxan"da yatıb, mətləbimə çataram, ya Əbəlfəz! – deyə özü öz hikkəsindən ləzzət alırmış kimi, daha başqa şeylər sadalayırdı.

– Ana, Əbilfəz əmini yenə çağırırlar sənin üstünə. Gəl, çıxıb gedək burdan. Mən qorxuram, ana. Sonra sənə… – deyə narahat olan, sarsılan qızıydı Məryəmin.

– Qoy çağırsınlar! İstədikləri qədər çağırsınlar. İnanmıram heç nəyə! Ən qiymətli nəyim vardısa, qıydı ona göylər…

Düzü, imansız olmamışdı heç zaman Məryəm. Bircə o qızılı payız günü. Günortaçağından sonra…

Bir payız səhəri bolluca günəş tökülmüşdü anasının pərişan saçlarına, bol günəş çökmüşdü anasının artıq ölüm pərdəsi çəkilmiş gözlərinə, bolluca günəş hopmuşdu anasının get-gedə saralan çöhrəsinə. Qarışmışdı günəşin zəif sarısı ölüm sarısına. Dəhşət idi o an! Ana güclə, heysiz, əllərini göylərə qaldırdı, göylərdən bir az da ömür istədi:

– Balalarım var, səni çağırıram, qadir Allah!..

Düzgün bəndəsiydi Allahın, həyalı, ismətli, haqqa düz, namuslu bəndəsiydi Allahın. Amma "qadir Allah" ona qıydı. Köçürdü o bilinməz dünyaya bir nazlı göyərçini… Bir payız səhəri Məryəmciyəz beləcə yetim qaldı anadan da.

Allah onun gözəl, yaraşıqlı, ismətli anasının gözlərini özü bağladı, özü qapadı yekə, ağır əlləriylə. Ağrısız və göynəməsiz.

* * *

Sınıqdı qəlbi, yaralıydı Məryəmin. Hamıdan gizli nisgili vardı. Di gəl ki, nə qədər məğrur, nə qədər nikbindi Məryəm!

Pəncərəni taybatay açdı, təmiz hava doldu otağa. Çamadanını gətirib stolun üstünə qoydu və pal-paltarını yığmağa başladı.

* * *

Böyük bir qalanı qucaqlayan vağzal əzəmətlə dururdu. Vağzalın nə böyük söz -söhbəti vardı, sirləri vardı! Yormuşdumu yolları bu yüklənmiş vaqonlar, yüklü adamlar, yüklər? Ki, yolların nağıllı bağrı sanki əbədi qapanmış, eləcə açılmamış qalmış, lal kimi susub kirimişdi?

Qara hisli, qara paravozun küy dolu uzun səsi eşidildi. Kimsə Məryəmi bərk itələdi. Əlindəki çamadan yerə düşdü. Əyilib götürdü. Bir əlinin içində balaca Nilufərin balaca barmaqları, o biri əlinin içində balaca çamadanın balaca qulpu

irəliləyirdi. Gəlib yorğun-yorğun sütunlu daş divarın küncündə daldalandılar. Kimsə oxuyurdu:

*Kinə məşi, kinə məşi*
*Zəmbili budəm,*
*azan omedəm.*
*Kinə məşi, kinə məşi*
*Poyoz omedəm,*
*azan omedəm…*

– Kinə, məka! (Ay qız, bəsdir!)
– O! Çiçi? (Nədir axı?)
– Kinə, vəso! (Ay qız, kəs!)

Bir az qabaqda qoca bir kişi özüylə götürdüyü yükün üstündə oturub yanındakı qırçın tumanlı balaca qızla talış dilində hey deyinirdi:

– Kinə, vallo, tını bəkiştəm (Ay qız, vallah, səni döyərəm).

Balaca qızın heç nə vecinə deyildi. Onun düymə dodaqlarının dəyirmi üzü, düymə burnu, düymə gözləri, günəşdən qaralmış vücudu elə hey gülürdü, Məryəm platformaya tərəf irəliləyirdi. Fikirləri dəmir relslər uzunu bir-birinə dolaşıb qalmışdı. "Qınıq da beləcədir. Lap düymə boydadır. Amma bu şıltaq, balaca qız nə qədər fərəhlidir, gümrahdır, heç yorulmur. Xoşbəxtdir. Qoy olsun! Bəs Qınıq?"

Kimsə Məryəmi yenə itələdi:

– O! Bo boyda dünyanı qoyub, helə gərək gəlib burdan keçəsən? Heç dəxli var? Yol ver, keçək o tərəfə. Görmürsən poyuz gəler?!

Vaqonlar lazımınca yükləndilər. İndi qatar üzü o yana gedirdi. Məryəm başını çarpazlaşmış qolları üzərinə qoyub, dərin nəfəs aldı. Sanki dincəlirdi. Dincəlirdimi? Yox, dünyanın götür-qoyu onu tənha buraxmırdı. Yollar, vağzallar. Yollarda insanlar nələr daşımırdılar? Böyük bir qarmaqarışıqlıq içərisində nə böyük həngamədəydilər insanlar? Tələsən kim, daşınan kim, daşıyan kim? Nə üçünmüş? Məgər bir ömür payımızı adi yaşaya bilmərikmi? Nədir bu təmtəraqlar?

Məryəm gözlərinin önündəki mənzərəyə xeyli tamaşa etdi. Bir sürü mal yiyəsiz-beşməkansız başları aşağı otlaya-otlaya örüşdən qayıdırdı.

"Bunlar ot yeyənlərdir. Bir də var ət yeyənlər. Nə fərqi? Dördayaqlıdırlar. Ya ot yeyərlər, ya ət? Ya ət verərlər, ya süd, ya da dəri! Başqa heç nə bilməzlər. Amma xeyirxahdır bəzi dördayaqlılar – ot yeyənlər, ət yeyənlər. Dördayaqlı da olmaq olar. Təki yırtıcı dördayaqlı olmayasan, amma yox, dördayaqlı yırtıcı da olmaq olar, təki iki ayaqlı yırtıcı olmayasan!"

Dalğındı Məryəm. Uzun, arıq barmaqlarını kürəyinə qədər tökülmüş sarı saçlarının arasında dolaşdırdı. İri, bulud gözlərini yorğun-yorğun təbiətdən ayırdı.

Qatar tərpəndi. Ot yeyənlər arxada qaldı. "Ot yeyən ki deyilik? Görən məndəmi dördayaqlıyam? Bəs niyə Qınığı tənha buraxıb gedirəm? Sən də zəifsən, sən də haradasa qorxacaqsan, xudpəsəndsən! Axı sən Qınığı…"

Kor-peşman qayıtmışdılar evlərinə… Məryəm də, Nülufər də. Yox! Onlar Qınığı tərk etməmişdilər. Məryəm hələ kənddə ikən tez-tez kəndin bazarına gedirdi. Bazarda xalq vardı, torpağın nemətləri vardı. Hər gün bir qoca, kor kişinin yanıqlı-yanıqlı çaldığı kamançasının insanı xəyal aləminə dartıb aparan səsi elə bil peşkəş edilirdi bu bol-bolluca bazara. Yox, o dilənmirdi. Sadəcə, çalğısında sirr gizlənən kamançasından ayrıla bilmirdi. Tənhalıqdan qorxurdu, bir də adamlarsız yaşaya bilmirdi. Başına yığışan bir-iki sənət əsiri deyirdi ki, lap elə bil İsmayıl Talışınskinin ecazkar sənətindən güc alıb bu kişinin barmaqları. Bazarın düz ortasından axıb gələn: "Ay sərin su xəlbiri, ürəyi yanan, gəl bəri!" sözlərin eşidib, elə bil gerçəkdən susayırdın və bu sudan alıb içmək, sonra yenə bu nurani kişiyə dönüb onun sehrkar musiqisinin sədaları altından qopmaq istəmirdin.

Şərq şirniyyatı olan fındıq halvası, bamiyə, küncüt halvası, İsfahan halvası bu bazarda yaman dəbdə idi. Bütün bazar, bazardakı adamlar hamısı yemiş qoxuyurdu, çəmən, ot ətri qoxuyurdu.

Bazarın o başında kömür iyli çayxanada yoğun, balacaboy kişilər arasından nəhəng gümüşü samovar boylanırdı, pıqhapıqıyla, tüstüsüylə. Burdan keçən qoca kişilərin maraqlı qədimi söz-söhbəti dəyirdi qulaqlarına.

Həsir-palaz satılan küncdə özündən bir qədər yaşlı, enlikürək, cüssəli bir kişi Məryəmin düz qabağında dayandı:

– Salam, Məryəm müəllimə! Eşitdik, gedirsiz, vallah, bikef olduq. Uşaqlarım sizi yaman istəyirlər. O, balaca "fındıq bala" var a, Cəco! Deyir ki, dünyada, ən yaxşı xala Məryəm xaladı. O nədir elə bağışlamusuz ona, kəpənəkdi, parabüzəndinədi, o qırmızı başataxanları deyirəm e! Heç gecə yatanda da hörüklərindən açmır. Deyir, Məryəm xala Qınığı da çox istilil. Deyir, onu o qədər öpül

ki, heç qoxmul ki, ona da çeçə çıxotka. Doğurdan, Məryəm müəllimə, siz görürsüz də o Qınığın başına nə işlər açırlar.

– ...

– Nədir, elə baxırsız, tanımadız? Yəni sizə heç tanış gəlmirəm? Qonşuyam da, Paşanın qonşusu. Dilonun, Mövsümün, Həsənin, Aytənin, Dadının, Eldarın, Solmazın, Cəconun dədəsiyəm də.

Sözlüydü bu kişi. Məryəm əvvəl elə bildi ki, hardansa doğur bu söhbət, ya maraqdan, ya sözçülükdən. Bir anlıq baxışlarını kişinin gözlərində gəzdirdi. Kişinin gözlərinin içi tər-təmiz idi. Sözbaz, araqarışdıran adama oxşamırdı. Dedi:

– İnciməyin, siz ki çoxdan qonşusunuz, çoxdan görürsünüz bu işləri, bəs niyə ağzınıza su alıb durmusunuz?

Bir an tutuldu kişi, sonra yenə o təmiz, xeyirxah baxışlarını Məryəmə çevirdi:

– Düzü, qonşuluqdur da. Bir də bu güzaran dərdi! Ev, ailə, bir sürü uşaq! Zarafat gəlməsin sizə. Özüm şofer işləyirəm Bakıyla bu kənd arasında. Səhər çıxırsan səfərə, bir də üç-beş günə qayıdırsan yorğun-arğın, balalarının birinin üzünü görürsən, o birisinin yox. Yenə sabah açılır, yenə belə. Nəsə etmək istəyirsən, mümkün olmur. Arvad da deyir ki, olar qudurmuşun biridirlər, ağzuvu yum, sənə iş vurarlar. Neynim, bacım, balalar var axı?

İçində xeyirxahlıqla qorxaqlıq tən birləşən bu adamla söhbətinin uzanmasından Məryəm nədənsə tez vaz keçdi və dedi:

– Siz Bakıya hansı markalı maşın sürürsünüz?

– “Kraz” maşınında sürücü işləyirəm.

Məryəm tez məqsədinə keçdi:

– Onda gəl belə edək. Belə başa düşürəm ki, əl-ələ verib bu tifili xilas etsək, savab iş görmüş olarıq.

– Necə edək ki?

– Qınıq hələ alaqaranlıqda suya gedir. Siz durun Şiləvar tərəfdə. O, küçəni burulanda vedrələri qoyub qaçar, ancaq qabaqcadan Cəconu başa salın, qoy hər şeyi danışsın ona, sayıq olsun. Hə, sonra alın maşınınıza, yetirin onu mənə. Ünvanımı sizə deyəcəyəm. Gəl, bu işi köməkləşib edək. Sizin işiniz yalnız bundan ibarət olacaq, vəssalam!

Kişinin insafı, xeyirxahlığı qorxaqlığına üstün gəlmişdi, deyəsən. O, şəhadət barmağıyla yekə papağını arxaya itələdi, sonra peysərini qaşıdı, alnını qırışdırdı və riyazi məsələ həll edirmiş kimi ağır-ağır, bir az da qorxa-qorxa dilləndi:

– Deyirəm, birdən bilsələr, məni işdən-zaddan azdırmazlar ki bir tərəfə? Ağzını marçıldatdı və birdən təzə bir şey kəşf etmiş kimi tələsik:

– Əşi, cəhənnəmə ki! Siz qadınsız, qorxmursuz olardan, mən qorxacam? Neyləyəcəklər bəyəm olar mənə? Qorxub-eləmirəm mən olardan. Bilirsiz, Məryəm bacı, düzü, zəndeyi-zəhləm gedir mənim olardan. Yan-yörəsinə baxıb yavaşcadan: – Şanbaz köpəy uşaqlarıdır onlar! Lap ürəyimcə eləyəcəyəm bu işi. Deməli, küçə bu, ev nömrə də bu! – deyə əlində tutduğu köhnə, cırıq qəzet parçasına qeyd etdi və sağ əliylə sol barmaqlarını bir-bir qatlaya-qatlaya saymağa başladı:

– Bu gün cümə, sabah şənbə, birisi gün bazar. Deməli, bazar ertəsi o sizin yanınızda. Razısız?

– Çox sağ olun. Mən ömrüm boyu sizin yaxşılığı unutmaram. Alın, bunu da Qınığın yolluğuna verirəm, – deyə Məryəm portmanatından bir qədər pul çıxırtdı.

– Yox, götürmərəm. Bir qulu mən əsarətdən pulla xilas etmərəm. Elə bilirsiz, bizim kişiliyimiz-zadımız çatmır, əziz bacım Tanrıca? – dedi və tələsik əlavə etdi: – Baxın, yaxşı baxın, bəlkə, tanıdınız. İtib, hər şey itib. Bircə adım qalıb. Gəlin tanış olaq. Adım “Dəli Dadaş”dır.

Məryəm sevinirdi. İkiqat sevinirdi. Sevinirdi ki, o dəli-dolu “Dəli Dadaş” ev-eşik sahibi olub, xoşbəxtdir, çoxluca uşaq atasıdır. Sevinirdi ki, Qınığı onunla “Dəli Dadaş” qovuşduracaq.

* * *

Qınıq birdən-birə qüssələndi. Böyük dəbdəbəli ev ona bomboş göründü. Amma darıxmağa imkanı yox idi. Ev yığışdırdı, sildi, süpürdü. Çay qoydu, çay süzdü, qab yudu, suya getdi, sudan gəldi. Günlərin birində də iri, yekə vedrəni quyuya salıb dayandı. Ağır vedrə suya sallanıb dururdu. Nə etsin? O, niyə belə dumanlıdır? Nə istəyir? Başa düşə bilmədi qızcığaz. Heç nə anlaya bilmədi. Birdən sakit-sakit quyuya söylədi:

– A-na! Məryəm a-na-a-a-a-a-a!!!

Quyudan qalxan əks-səda qızı qorxutdu. Yan-yörəsinə baxındı. Yox, ətrafda onu pusan kimsə yox idi. İndi hər şeyi deyə bilər, quyunun lap içərilərinə deyə bilər:

– Quyu əmi! Heç kimə deməzsən ki? Səninlə sağollaşmağa gəlmişəm, e! Sağ ol da! Sabah məni

anamgilə aparacaqlar. Dünən Dadaş dayı dedi, “Dəli Dadaş” var ha, o!

– O! O! O! O!... quyunun hər tərəfindən bir “o!” səsi qopdu.

– Hi! – Quyu əmi, sən də sevinirsən? Hə, hə. O Dadaş dayı aparacaq məni, Dadaş dayı! – deyib yenə başını quyunun sərinliyinə sallayıb ləzzətlə söylədi: – Da-daş da-yı-yı-ı!!!

Arxadan yekə bir əl ağzını qapadı və gözlənilməz bir ağır təpik onu yaman ağrıtdı.

– Hardasan? Nə itib-batmısan burda? Heç bilirsən nə olub? Sağ olmamışlar neyniblər? Köpək uşaqları, matoru birdən buraxıblar, kranın trubaları partlayıb, su basıb ev-eşiyi. Əldən düşmüşük. Sənsə burda can verirsən! Evə dönmə, dönsən, meyidin qalacaq! – dedi Paşa. Yaman dedi, şir kimi, pələng kimi dedi.

Fırr eləyib div boyda kişi bənövşətək boynubükük bir çiçəkdən küsdü, getdi.

Heç ağrılarını hiss etmirdi də. Bircə şeyə sevinirdi. Nə yaxşı ki, Paşa Dadaş dayının adını eşitmədi, nə yaxşı ki, quyu ona heç nə demədi.

Hava qaranlıqlaşırdı. O, quyunun başında naçar-naçar oturmuşdu. Axı Dadaş dayısı onu aparmalıydı. İndi o, hardan biləcək ki, Qınıq burda quyunun başındadır?

Nə üçünsə balaca, “yiyəsiz küçüklər” kimi zingildəyirdi. Birdən yumşaq bir əl başını sığalladı. Qızcığaz indi lap qorxurdu, dönüb arxaya baxmağa qorxurdu. Kirpiklərini bir-birinin üstünə bərk-bərk sıxmışdı.

– Qorxma, qızım, aç gözlərini, mənəm!

Gələn Sahir idi. Bacısının qana batırıb yedizdirdiyi çörəkdən bu qızcığazın yaxa qurtarmasına heç bir çıxış yolu tapa bilməyən aciz və mələk təbiətli Sahir!

– Dərdim böyükdür, Qınıq! Bu dünyada bircə bacım var. Mən ona bu çətin günündə kömək eləyə bilmədim. Daşqın olub, daşqın! Mən isə əlimə bir qab alıb, bircə qırıq su da boşaltmadım bu evdən. Əlim gəlmədi. Heç olmasa yadlar durub kənardan baxırdı, mən isə gizlənmişdim, Qınıq. Nə ayaqlarım getdi, nə də əllərim qalxdı. Öz doğma bacıma kömək edə bilmədim, keyləşmişdim, – dedi.

Çox üzüntülü, çox süst görkəmi vardı. Yenə dedi:

– Gəlmişəm səni aparam bizə. Al, bu çörəyi ye! Yavan da olsa, hələlik ye, ac qalma! Sora görək də, Cövhər xalan nə bişirər. Yeyərsən, dincələrsən, bir az uşaqlarnan oynayarsan, o vaxta buların da hirsi soyuyar, sora gedərsən. Yoxsa səni, Allah bilir, nə günə qoyarlar.

Sahir, yaxşı ki, hələ bu sözləri deyə bilirdi. O, elə əzgin idi ki, az qalırdı üzüqoylu yerə uzansın. Uşaqsa öz yeməyində idi. Sanki çörəyin üstündə bal vardı. Bu çörək parçasını şirin-şirin yeyirdi. Birdən Qınıq nə görsə yaxşıdır? O boyda kişinin gözlərindən yumru-yumru yaşlar axır. O boyda kişi quyunun yanındakı daşın üstündə oturub yazıq-yazıq ağlayırdı.

– Qınıq, sən bilməzsən belə işləri. Dərdim böyükdür. Bu gün mən ən pis xəbər eşitmişəm. Heç bilirsən nə olub? Dadaş ölüb...

Sahir ölü kimi üzüqoylu düşdü.

Sahirin gətirdiyi loxma bütün ümidlərini itirmiş qızın boğazında daş kimi ilişib qalmışdı.

* * *

Bir çərşənbə axşamı, zülmət qaranlıqda yenə suya gedirdi Qınıq. Amma bu dəfə yamanca titrəyirdi. Yox, ağlamırdı Qınıq! Ağlamağa vaxtı da yox idi. Uzanmaqda olan qaranlıq yola yaşıl gözlərindən sanki zümrüd işıqlar səpələnirdi. O, gedirdi. Əlində iki boş vedrə danqıldadaraq gedirdi. Hara gedirdi. Niyə gedirdi? Quyunu ki çoxdan ötüb.

Tini burulub vedrələri qoydu yerə. İndi yeyin-yeyin qaçırdı. Axı o hara qaçırdı? Getməyə yerimi vardı? Bu nə qorxu idi düşmüşdü onun körpə ürəyinə? Bir yandan da bu küçə itləri? Elə bil bir-birinə xəbər vermişdilər. Hamısı hürürdü balaca qızcığaza. Yox, Qınıq qorxmurdu bu itlərdən. Nə onların Qınığa açılmış yekə dişlərindən, nə bağırtılarından. Qınığı indi başqa şey qorxudurdu. Birdən onu izləyərlər, axtarıb taparlar. Necə olar Qınığın halı?

O, qarşıda nələr olacağını heç düşünmürdü də. Təki bu gecədən çıxsın. Elə bil Qınıq hansısa ümid kələfindən tutmuşdu. Bu kələf onu yaxşılığa doğru aparacaq, mütləq aparacaq!

O, ümidlə qaçırdı, vağzala çatdı.

Vağzal. Pəncərələrinin çərçivələrinə qırmızı, sarı, göy rəngli şüşələr yapışdırılmış bu nəhəng binanı tanıdı. Dondurma, siqaret və s. satılan köşkün böyründə daldalandı. Ətrafda sıx ağaclardan başqa ins-cins yox idi. Köşk, gecə və şam ağacı onu örtüb gizlətmişdilər. İndi rahat nəfəs ala bilər.

Üzündə tər damcıları gilələnirdi. Ayaqyalın idi. Əynindəki cındır paltar yamyaş idi. İndi vaqonları bir-birindən möhkəm yapışmış uzun

qatar gələcək, nəfəsini bir azca dərib Qındıcanı qoynuna alacaq və o, bu yerləri, bəlkə də, həmişəlik tərk edəcək. Tərk edəcək, tərk edəcək…

"Həmişəlik tərk edəcək! Həmişəlik tərk edəcək! Həmişəlik tərk edəcək…" yorğunluqdan mürgüləyən Qınığın göz qapaqları endi.

…Bir parça ay dolandı üzündə. Amma yepyekə idi. Bütün ağacları, damları, adamları örtmüşdü. Mavidən də mavi idi, lap Məryəm ananın gözləri kimi. Ayın belə füsunkar maviliyindən gözləri qamaşdı. Yaşıl gözlərində sulu titrəmələr oynaşdı. Sürüşüb çiyinlərinə düşən ləçəyinin altından qara qıvırcıq telləri görsəndi. Əlini çəkib bağlamaq istədi. Ləçək qov kimi yüngül bir boşluqda əllərindən sürüşüb qeyb oldu. Qulağına narın-narın səslər doldu:

– Yoluna süd kimi ağ işıqlar səpələnsin!

– Hi! Sən kimsən? Sən hardan danışırsan?

– Ömrün aydınlıq olsun!

– Sən Dadaş əmisən?

– Yox, sənin Dadaş əmin indi buludlar arasındadır.

– Sən Sahir əmisən?

– Yox, körpəciyim! Mən Sahir əmi olsaydım, səni çoxdan xilas etmişdim.

– Susun, əmi, susun! Sahir əmi yaxşı əmi idi, – qızcığaz ətrafına baxındı. Heç bir şey anlamadı. Əllərini uzadıb ləçəyini axtardı. Tapa bilmədi. Yenə o səs eşidildi:

– Lazım deyil, mənim biçarə məxluqum! Gizləmə, gizləmə tellərinin qıvırcıqlarını! Nə gözəldir saçların sənin. Gözlərin iki damla göldümü? De görüm, bu yar-yaraşığı sənə atanmı bağışlayıb, ananmı?

Göydən Ay pıçıldayırdı. Bayaqdan bəri onu aram-aram seyr edən Ay! Apaydın eşidirdi bu sözləri Qınıq. Danışmağa heyi yox idi. O da pıçıldadı:

– Atam yadıma gəlmir, Ay! Anam da danışmazdı ondan, – susdu qızcığaz.

Bu ara xəfif bir qızartı çökdü üzünə. Aya dikilmiş baxışlar yerə endi.

– Bəs anan?

– Anam yadımdadır. Yaşıl gözləri vardı, qıvrım telləri, yumşaq əlləri.

– Bəs hanı?

– Ölüb, Ay əmi!

O bu son sözlərini deyərkən titrəşən sulu gözlərini Aya dikdi və elə nagahan baxdı ki, Ay utandı.

İstər-istəməz süd kimi ağ qanadcıqlarını uzadıb qızın tellərini sahmana saldı.

Artıq Ay uzaqlaşmışdı. Bir az sonra son sözləri eşidildi. Ay kövrək-kövrək lap astadan pıçıldayırdı:

– Kədərlənmə, göyərçin balam! Sən də bəşər övladısan!

Qınıq göz qapaqlarını açarkən, doğrudan da, bir gümüş şəfəqli Ay doğmuşdu və o məşum çərşənbə axşamı arxada qalmışdı.

* * *

Sən demə, uzun-uzun dəmir relslərin üzəriylə şütüyən qatar yaman fəryad etməyi bacarırmış. Sən demə, bu qatar fit verib dünyanın çöl-biyabanlı geniş döngələrindən sağa-sola dönərkən dərindən köks ötürməyi bacarırmış, ağzından qıpqırmızı od qığılcımları püskürürmüş. Sən demə, qızcığaz soyuqdan tir-tir əsərkən un kisələrinə söykənirmiş və sən demə, alçaq damlı, üstüaçıq yük vaqoncuqlarından üzüyuxarı dünya necə də nəhayətsiz imiş!.. Və bir də nə üçünsə adamların hamısı gecikirlərmiş qatara minməyə, zavallı Qındıcanı bu yerlərdən həmişəlik alıb aparan alçaqboylu, üstüaçıq vaqonlu qatara!

* * *

Səhər alatoranlıqda Nilufər də oyanmışdı, Məryəm də. Onlar məktəbə getməliydilər. Stolun başında oturub səhər yeməyi ilə məşğul idilər.

– Bü gecəki yuxudan heç baş açmadım, Nilu! Boğulurdum elə bil. Sonra gördüm ki, göldür. Qınıq balıqların arasında üzür, gah batır, gah suyun üzünə çıxır. Guya balıqlarla yarışır. Amma gözümə yaxşı dəydi. Hə, əlimi atdım, ancaq sürüşüb gözdən itdi. İstədim çağırım, səsim boğuldu. Gördüm ki, gölün o sahilindəki dağlardan qar yığını tökülür. Bu qar topasının içiylə hündür cüssəsini ağır-ağır dartaraq Dadaş addımlayır. Gülümsünürdü… İndi belə birtəhərəm, Nilu!

– Eh! Hər şeyin fikrin çəkirsən. Yuxudur da. Nənə demirdi ki, yuxu tərsinə olur həmişə? Deməli, Qınıq gəlir. Dadaş dayı gətirir onu.

...Əgər bilsəydi Məryəm ki, o dəli-dolu Dadaş növbəti yol səfərlərinin birində qəzaya uğrayıb o çoxluca balalarının gözlərini yollarda qoyacaq, əgər bilsəydi ki, Məryəm yollarda əriməkdə olan bir ömür yollarda da bitəcək, çox yəqin, yanıb tökülərdi o zəhməti özündən ağır Dadaşa və indicə hönkür-hönkür ağlayardı. Yollarda ölən

leyləklərin ömrünə bənzədi "Dəli Dadaş"ın ömrü…

Radioda kimsə oxuyurdu:

*Sənə mən aşiqi-şeyda, qərənfil,*
*Sənə mən aşiqi-şeyda, qərənfil...*

– Ana, şeyda nədir?

– Şeyda? Yəni dəli.

– A… Qərənfilçin də dəli olmaq olar?

– Olar, olar, quzum! Sevib dəli olmağı hər kimsə bacarmaz! Mən də şeydayam. Dəli kimi sevirəm. Yəni səni və Qınığı.

Gülüşdülər. Bu ara telefon zəng çaldı. Məryəm dəstəyi qaldırdı:

– Alo, eşidirəm sizi.

Kimsə susurdu.

– Alo, kimdir?

– Mənəm.

– Kimdir?

– Mənəm, Qınıqdır!

– Nə? Kim? Eşitmədim, kimdir?

– Qınıyam, Qını! Acıqlanmayın mənə. Bilirsiz… mən…

– Axı sən hardan danışırsan, göz bəbəyim?

Qınığın ürəyi bu sözlərin həlimliyindən quş kimi çırpındı.

– Burdan, vağzaldan.

– Vağzaldan? Yəni hansı vağzaldan, harasından axı?

– Burdan, Bakıdan, bir qutabsatan xalanın ərəbəsinin yanından. Bu xala mənə qutab da verdi, mənimçin zəng də etdi.

– Yaxşı, dur ordaca, gəlirəm, bu saatca çıxıram evdən. Heç hara tərpənmə ha, o yaxşı xalanın yanından, eşitdin? Hə, allo, bəs Dadaş dayı sənə heç nə demədi?

– Dedi.

– Bəs sən onu niyə gözləmədin?

– Çünki…

– Hə, danış, eşidirəm.

– Çünki o çox uzağa gedib.

– Uzaq yola çıxıb?

– Hə… Dünən Sahir əmi dedi.

– Nə dedi?

– Dedi ki… Ana, mən ağlayıram.

– Sahir əmi daha nə dedi?

– O da ağlayırdı.

– …

– Ana, sən də ağlayırsan?

Əlbəttə ki, ağlayırdı. Məryəm Dadaşın qəfil ölümünə yanıb-tökülürdü. Əlbəttə ki, ağlayırdı. İndi onu ikinci bir səs "Ana!" deyə ardıyca çağırırdı.

Vağzalın qarmaqarışıqlığı içərisində bir-birlərini tanıdılar. İllərdən bəri didərgin düşmüş doğmalar kimi öpüşdülər, qucaqlaşıb bir müddət aralanmadılar. Məryəm Qınığı bağrına elə bərk-bərk basmışdı ki, sanki bu saat əlindən çıxacağından qorxurdu. Məryəm onun üzülmüş, zərif bədəninin hər yerindən bir ürək çırpıntısı eşidirdi.

Uşağın gözləri qupquru idi. O heç nə başa düşmürdü. Nə bu qarmaqarışıq vağzal həyatını, nə də fəlakətini. Məryəm isə bircə kəlmədən – "Ana!" deyə bütün varlığını titrədən səsdən çaşıb qalmışdı. Onunçun açılmaz olan düyünlərin ən duyğulusu, ən sirlisi bu idi – bu titrəyiş, bu səs!

* * *

Küçələrin daş döşəmələrini sarı payız yarpaqları bəzəmişdi. Hava tutqun idi. Səma ağır qurşun təki yerə sallanırdı. Hansı diyardansa süzüb gələn bir qatar durna ötdü.

Qara, gen meşin mantolu bir qadın küçənin çarpaz tinini burulub yeyin addımlarla irəlilədi. O, birdən ayaq saxladı. Başını qaldırıb boz səmaya və ötən durna qatarına baxdı. Nə qərib görkəm almışdı dünya? Hələ sarı payız neməti?! Ayaqlarının altına səpələnmiş qızılı yarpaqların üzəriylə addımlamaq onunçun ən amansız bir iş idi. Əyilib bu "qızıl" parçalarından birini ovcuna aldı. Nə üçünsə düşündü: "Yiyəsiz ki deyil Qınıq…"

Gözlərini bir də gəzdirdi qurumuş yarpağın qanı uçmuş damarcıqlarında. "Var, onun yiyəsi var, hörmətli şişman Paşa və zərli-zibalı Zəri, var! Qarşıdan açılan bu işıqlı sabahlar bəs kimindir?! Sizsə bax, bu qurumuş yarpaq kimi, zəif bir külək üfürümünə bəndsiniz..."

Bu nədir? O hara gəlib çıxmışdı? Bu boz, payız səmasının altında bir neçə addım da irəliləyib qırmızı yazılı bir qapının ağzında qətiyyətlə ayaq saxladı.

Bayıl. Milis idarəsi.

O bura şikayətəmi gəlmişdi? Ta yaranışından indiyəcən yaxşılı-pisli adamlardan şikayət etməmişdi. Ömründə ilk dəfə milis qapısı açıb içəri addımlayan bu qadını görəndə yuxarı başda oturan milis mayoru da belə fikirləşdi, deyəsən. Qadına bir də nəzər saldı. İti, ağıllı gözləri olan bu qadını dərhal tanıdı. Amma susdu.

– Bağışlayın, mən vətəndaş Məryəm Tahirliyəm. Sizin sahənizin sakiniyəm. Bilirsiz… Bilirsiz… – deyə Məryəm özünü toplayıb ürəyinin ən böyük götür- qoyunu söyləmək istədi. Milis mayoru onun sözünü kəsdi:

– Bilirəm. İstəyirsiz hər şeyi danışım. Mən sizin bütün həyatınızla tanışam… O balaca qız əhvalatını da bilirəm. Sizin narahatlığınızın səbəbini də bilirəm. Arxayın olun, orqan Qınığın etibarlı əllərdə olduğunu bilir və daha axtarış elanı verməyəcək. Siz böyük xeyirxahlıq etmisiniz. Xoşbəxt yaşayın, Məryəm xanım!

Məryəm mat qalmışdı. Qeyri-ixtiyari dedi:

– Təşəkkür edirəm...

– Siz mənə ikinci dəfədir ki, təşəkkür edirsiz, yükünüz yenə də yüngüldür?

– Mən sizi anlamadım.

– Yadınızdamı, cəmisi bir ay bundan əvvəl biz bir qatarda gedirdik? Sizə kömək etmək istəyirdim, təşəkkür etdiniz. Yükünüzün yüngül olduğunu söylədiniz.

– Xatirimdə deyil.

– Mən də dedim ki, amma siz mənim yaddaşımda yamanca ilişib qalacaqsınız.

– Təşəkkür edirəm.

Şabalıdı saçlı, şabalıdı gözlü bu oğlan – gənc mayor fikirləşdi ki, niyə bu qadın bu qədər incə, kövrək, qayğılı və eyni zamanda bu qədər laqeyd və soyuqqanlıdır? Və bu qadın nə çox “təşəkkür”lüdür?

– Təşəkkür edirəm sizə, düzlüyə, ədalətə!

– Qəribəsiniz… və qəribə hissiyyatınız var. Siz nə bildiniz ki, mənim adım Ədalətdir. Bəli, özüdür ki, var Ədalət İbrahimov…

“Qəribə…” Hə, Məryəmin yadına düşdü. “Siz qəribə qadınsınız…” Məryəmin gözləri aşağı, parket döşəməyə endi.

– Məryəm!

– …

– Siz çox qeyri-adi qadınsınız. Sizi düşünməmək olmur. Hətta sizin xəyalınız belə unudulmur…

Məryəmi sükut çulğadı. O, hətta ani olaraq kövrəldi də… Lakin heç bir şey demədən qapıya doğru yönəldi.

– Məryəm!!! Biz sizinlə çox xoşbəxt olarıq!

Məryəm artıq qapıdan o tərəfdə idi.

– Mən sizi onsuz da axtaracağam! – bu gənc mayorun səsinin qətiyyətli sədası idi.

Milis idarəsinin qapıları onun arxasınca yüngülcə örtüldü və bu səda eşidilməz oldu. Bu səda Məryəmi büsbütün sarsıtmışdı. Bir zamanlar onun ardınca tökülən “o bir unudulmaz səda”nın çiliklərinə bənzəmirdimi bu səda?

Məgər Məryəmin bütün inamını qıran, ümidlərini boşa çıxaran həmən o səda – o üzdəniraq alicənablıq sədası deyildimi?! O bir səda deyildimi, nəcib və gözəl Məryəmi növbəti, daha dəhşətli zərbəyə məruz qoyan? Yox, indi Məryəm qulaqlarını daha möhkəm bağlamışdı. O, heç bir şey eşitmək istəmirdi.

“Qəribə”. “Qəribə qadın”. “Qəribə adam!” Hərgah insani xüsusiyyətləri tam mənasıyla özündə təcəssüm etdirə bilən həssas bir insansansa və sənə çəkinmədən “qəribə” deyirlərsə, bu özü əsl qəribəlik deyilmi? Məryəmi qəribələr dünyasında seçilmiş, bəlkə də, yeganə bir “qəribə” etmirmi? Və bu ən böyük qəriblik deyilmi? Hə, qərib deyilmi Məryəm?!

Yox, heç vaxt, heç vaxt! Məryəm heç vaxt bu aldadıcı sədalara cavab verməyəcək!

Qarşıdakı daş fontanın üstünə əyildi. Bir az su içdi, bu sudan bir az da üz-gözünə səpələdi. Çiyinləri sanki ağır bir yükdən qurtulmuşdu. O, cinayət və oğurluq etmədiyini elan edə bilmişdi.

Evə yollandı.

* * *

İki cüt göz intizarla yollara dikilmişdi. İçəri girdi. Nə böyük səadət! Qucaqladı bir cüt balasını.

Evin içindən təmiz bir rayihə yayıldı canına. Bu sadə, yoxsul və “zəngin” otağı ona dinclik gətirirdi həmişə. Divarları xalısız idi. Amma boş deyildi. Dünyadan köçüb, dünyada qalan bir neçə dahiylə bəzənmişdi divar: Böyük Nazim Hikmət, qoca Tolstoy, öz əliylə çəkdiyi pirani Füzuli, altında da bu beyt:

*Öylə sərməstəm ki, idrak etməzəm,*
*dünya nədir,*
*Mən kiməm, saqi olan kimdir,*
*meyü-səhba nədir?*

Bir layı ovulmuş başqa bir divarın içərisindən payız sobası qırmızı dilimlərlə alovlanırdı. Sobanın üstü kərpiclə hörülmüş və heç bir pula alınmamış təbiət əşyaları ilə bəzədilmişdi. Təbiət bunları elə-belə peşkəş etmişdi Məryəmə. Bunlar: ilbiz çanağı, balıqqulağı, qamış qırımları, çayır otu… Su ilə doldurulmuş, amma içi qırmızı balıqlarsız yaşıl yosunlu akvarium. Bir vaxt geniş

meşələrə uçurduğu bülbüllər kimi, akvariumun qırmızı balıqlarını da tutub bircə-bircə buraxmışdı gen dəryaya…

Otağın bir kənarında köhnə palaz və üstündə iki mütəkkə. Kitablar… Buydu Məryəmin var-dövləti, vəssalam.

Mütəkkələrdən birinə dirsəkləndi. İndi nə olacaq? O, hələ cavandır. Götürdüyü bu uşağı və Niluferi bu böyük dəbdəbəli həyatda necə böyüdəcək? Yox, Məryəm heç bir çətinlikdən qorxmurdu. Sadəcə olaraq düşünürdü. "Görən, onu xoşbəxt edə biləcəkmi? Birdən ömür Məryəmi yarıda qoydu?! Nə olar bu iki övladının sonu?"

Qarşıdan uzun bir yol uzanırdı.

* * *

Aylar adlayırdı. Bir güzgü. Üç qadın! Gör nə həşir vardı burda? Üçü də tələsir, üçü də bəzənirdi. Teatra gedəcəkdilər.

Keçib yerlərində oturdular. Pərdə açıldı. Tamaşanın ortasında səhnəyə üçbaşlı div gəldi, nərə çəkib qabağa doğru irəlilədi.

Kiçik qızının sağ əli Məryəmin ovcunda idi. Məryəm hiss etdi ki, onun barmaqları buz parçasına dönüb, pıçıldadı:

– Nədir, soyuqdur sənə? Səninləyəm, Qınıq!

– …

Uşaq dovuxmuşdu. Məryəm qaranlıqda onun üzünə baxdı. Gözləri bərəlib nəlbəki boyda olmuşdu.

Səhnədəki div nərə çəkərək lap yaxına gəldi. Qınıq Məryəmin yanından "Vuy nənə!" – deyib sıçradı, sıraların arasıyla qapıya doğru necə qaçdısa, bütün tamaşaçılar onun ardınca boylandılar. Özünü itirmiş Məryəm qışqırdı:

– Qınıq! Qınıq! Qındıca-a-a!

Hamı güldü. Tamaşa bir yana qalmışdı. Bəlkə, div də güldü.

Hər şey aydın idi. Özünü itirmiş Məryəm necə oldusa: – Tanrı! Tanrı! Səninləyəm, qorxma, qızım, bu yalançı divdir, qorxma! – deyə birdən-birə adından utandığı Qındıcasına və özü də bilmədən öz adıyla çağırdığı Tanrıcasına doğru yüyürdü.

Tamaşadan yarımçıq evə döndülər. Yol boyu gülməkdən uğunub gedirdilər.

* * *

"Tanrı". Bu adla məktəbə yazdırdı onu Məryəm. Adını da ona bağışladı, əsilzadəsini də.

Tanrı Tahirli. Balaca Tanrısının əlindən tutub böyük Bakının küçələrini gəzərək vitrinləri ötdülər, bağlardan, bağçalardan keçdilər. Təzə paltar, ayaqqabı, məktəb çantası, rəngbərəng qələmlər, dəftər, kitab, hər şey aldılar. Balaca Tanrı sevincək idi. Dodaqlarından təbəssüm əskilmirdi. Bir cüt hörük hörmüşdü ona anası. Çəhrayı lentli hörüklər, çəhrayı ipək donu sarı bənizini gizlətmişdi.

Qoşa qala qapısından keçib İçərişəhərə girdilər. Məryəm: "Bu, Xan sarayıdır. Bura hamam olubmuş. Zəlzələ bunu kufəkun eləyib. İndi bərpa olunub, tarixi abidə kimi qorunur. Bu möhtəşəm qala da Qız qalasıdır ki, onun nağılını sənə danışacağam".

Qotazlı, zınqırovlu, bərli-bəzəkli bir fayton baş alıb gedirdi. Başında buxara papaq, əynində milli geyim olan bir qoca faytonu əylədi, mindilər. Atın nal səsləri taqqatuqla küçələri döyəclədi.

* * *

Nilufər çox sevirdi bacısını. Bu balaca qız ona heç kimin bilmədiyi səadət bağışlamışdı. Nilufər bu səadəti hamıdan gizli saxlayırdı.

Dünən ürək qızdırıb Nilufərə bir "sirr" açmışdı Tanrı:

– Nilu, de, ana canı, heç kimə deməzsən?

– Yox, ana canı, demərəm.

– Bu rus dili yaman çətindir e!

– Elə bu?

– Hə də, rus dili çətindir də.

– Bəs nəyi deməyim heç kimə?

– …

– "İki" almısan?

– …

– De, de! De ki, "iki»" almışam da!

– Hə, – başını aşağı salladı və əlavə etdi:

– İki dənə!

– Ay səni…

Elə həmin günü də Nilufər zorla ona bir xeyli rus kəlməsi əzbərlətmişdi. Ancaq bir telefon əhvalatında Tanrı Nilufəri "biabır" etmişdi. Dəstəkdə qonşu Rənanın dilli-dilavər dünya gözəli (Məryəm onu belə çağırardı) Laləsiydi.

– Tetya Maryam! Eto ya, Lala, Zdrastvuyte!

– Zdrasti, rodnaya.

– Tet Məryam, moya mama qovorit, çto u vas novaya devoçka. Pravda li, ona vaşa doçka?

– Da, da, da!

– A…ay balam, a kak e, eto?

– …

– Vot vam teper xoroşo. U Nilu sestriçka, a u vas dve doçki.

– Da, da, rodnaya.

– A vot, ya b toje xotela b sestriçku. Mama uşla, a ya odna. A vı znaete, pozavçera, ona mne prinesla koşku i qovorit: “vot tebe i sestriçka, poiqray s neyü!” Vay-y. Çto ye, mam qovorit? A kotyonok je ne çelovek, tet Mar! Ne pravda li? On ved ne qovorit so mnoy, i vse vremya molçit. A naoborot, qolovu moroçit: myaukaet, şalit, kuşat prosit bez konsa… O mama eşe qovorit, çto ona v yaşiçek delaet, za etim tı doljna sledit. Vay-y-y… A vot, kak neskolko stranno zvuçit “Çeloveçik!” Ya dumayu!

Gülməkdən özündən getməyi vardı Məryəmin. İndi bu böyük-böyük danışan balaca şeytan Lalənin bu sözlərindən uğunub gedirdi.

– A mojna li seyças mne s ney qovorit?

– Mojno, mojno, koneçno. Al, Tanrı, al dəstəyi, danış.

– A… nə deyim mən ona?

– De ki, kak dela, Lala?

– Kak telo, Lələ?

– De ki, prixodi k nam inoqdo.

– Yox, yox, mən belə deyə bilmərəm.

– De, de, de -ki, i-noq-da pri-xo-di k nam.

Tanrı çox ciddi bir görkəm aldı, özünü topladı və güclə belə dedi:

– ı…ı…Ni-kağ-da ni-pir-xadi k nam.

Otaq gülüş səsiylə dolmuşdu. Tanrı özü də gülürdü. “İnoqda”nı “nikoqda” söyləyən Tanrı bir neçə vaxt ərzində artıq çoxlu rus kəlməsi öyrənmişdi. Ancaq lap ötən günlərdə “Russkiy yazık”da oxumuşdu: “Mama jıdıyot papa”, “Eto eşqaf” (şkaf), “eto çırk” (sirk), a eto… deyib ardını oxumadan öz-özünə söylənmişdi: ”Niyə pis adamların adlarını yazırlar kitaba?”

Qızcığaz “tetya Paşanı” “Paşa” başa düşmüş və ağzıaçıq qalan kitabı dərhal üzüaşağı yerə qoymuşdu.

* * *

Hər şey maraqlı idi, məzmunlu idi, ilıq və həlimtəhər idi həmin gecə. Və həmin gecənin lap gecəyarısı qapı döyüldü. Qapının o tərəfindən səslər eşidildi. Yuxusundan səksəkəli ayılan və heç bir şey anlamayan Məryəm əvvəlcə uşaqları düşündü: “Görən, ayılmayıblar ki?” Yatmışdılar.

Qapıya yaxınlaşa-yaxınlaşmaya qapının arxasından bu sözləri eşitdi:

– Ay həyasız, qulluqçumu didərgin etmisən sən! Məktəbdə uşaqlardan pul alıb qiymət yazan! Ay boşanmış, ay əri qoyub gedən. Ay yazıq! Sındıracağam qapını, aç deyirəm sənə! – Bu, Zərnişan idi.

Qapıya gəldi:

– Gözləyin, geyinim!

– Hə, bəlkə, milisə zəng edəsən! Zəng et də, niyə durmusan? Milisi pulnan satın alaram, səni də üstəlik! – bu da Paşanın səsi idi.

Yox, Məryəm arxadan vuran namərdlərdən deyildi. Qorxmurdu Zərnişandan da, onun hay-küyündən də, qapısına hücum etmiş, qadın üstünə “xəncər-bıçaqla” gəlmiş yoğun və şişman ərindən də, özünün ərsizliyindən və tənhalığından da.

Qapını açdı. İndi şişman Paşa yekə, zırpı ayaqlarıyla dəmir qəfəsdəki şirə bənzəyirdi, imkansız-imkansız otaqda var-gəl edirdi. Kişiliyi tapdanmışdı, kişiliyi.

Zərnişan isə qonşuları ayaq üstə qaldırandan sonra içəri girib düz Tanrının çarpayısına tərəf getdi. Yatmış Tanrı gözünə ətcələnmiş göründü, başqa təhər göründü, amma Zəri belə dedi:

– Dur ayağa, ay yazıq uşaq, ay yetim! Gəlmişəm səni aparam. Heç bilmirəm sənnən neynim, necə eləyim?

– Neyliyəcəksən? İki kərpicdir, bir dəniz, bir də onun canı. Salla kərpicləri boynundan. Tulla dənizin ortasına, vəssalam! – deyə Zərini qızışdırmağa başlayan Paşa yatmış Tanrının lap başı üstündən dedi bu sözləri və əlavə etdi ki:

– Mən sənin yerində olsam, onu bir gecənin içində məhv edərəm. Məryəmi haldan çıxarmaq istədi və birdən yatmış qızcığazın saçlarına toxundu, möhkəm toxundu. Kobud barmaqlarını onun saçlarının arasına ilişdirib pırtlaşdırdı.

Məryəm atıldı:

– Əl vurma ona! – Bu bircə cümlədən boğazının bütün telləri az qala qırılmışdı.

Tifil isə səksəkəli, yuxusunu söyləyirdi: “Ana! Mən qorxuram. Onların əlində iki yekə kərpic var”.

Paşa lap yuxarı başa keçdi. Yerdən qoyulmuş mis satılın içərisindəki qamış qırımlarının qabağında ayaq saxladı, baxdı. Baxdı və güldü, ələ salıb güldü:

– Ay Zəri! Bir adam ki, çöl qamışlarını qırıb gətirə evin yuxarı başına düzə, sən o adamdan daha nə gözləyirsən? Hələ sən bir buna bax! – deyib, divardan asılı qalan, Məryəmin öz əliylə

tikdiyi "qurama" tikili əl işini qoparıb yerə atdı və davam etdi:

– Bir adam ki, cırdır-mındırı bir-birinə tikə, divara vura, ev-eşik bəzəyi eliyə, daha üşüvü burdan götür də! – Sonra şaqqanaq çəkib güldü:

– Mənim seximdə kefün istəyən qədər belə cındırlardan var. Gəl, bala, gəl, nə qədər istəyirsən, verim sənə, dayı yazıqsan da, keçib bizimki.

Məryəm susmuşdu. Bayaqdan bəri hay-küyü aləmi başına götürən Zərnişan da susmuşdu. Heç bir kəlmə də danışmırdı. Gözlərini evin hər tərəfində gəzdirdi. Baxışları sol divarda ilişib qaldı. Nə üçünsə süstəldi. Rəngi solmuş palazın üstündəki alçaqboylu kətilə oturdu.

Bir neçə dəqiqəlik hər üçü susdu. Sükutu Paşanın səsi pozdu:

– Sən bura nə üçün gəldiyini unutma! Bəlkə, qonaq gəlmisən? Bəs səhərdən nə ölçüb-biçirdin?

Paşa dözə bilmirdi. Qurduğu hiylə, deyəsən, həyata keçməmişdi. Yaxınlaşdı, Zərinin qulağına nəsə pıçıldadı.

Zərnişan yenə susmuşdu. Paşanın pıçıltıları davam edirdi və hətta bəzi sözlər eşidildi də: "Nə donub qalmısan? Heç olmasa qorxuz onu, de ki, evinə od vurub yandıracaqsan. Al, al kibriti verirəm sənə, al qorxut!

Zərnişan heç eşitmirdi ərinin söylədiklərini. O, nə üçünsə birdən partladı və birdən söndü.

Zəriyə birdən partlamağı keçdiyi həyat tərzi öyrətmişdi. Birdən sönmək isə təbiətində idi. Bu, Zərnişanın bir zərrəcik insafı idi ki, hardasa, bətninin bir tərəfində gizlənmişdi və onun partlayışını söndürmüşdü.

Adətən, insanların içində məğlubları, qalibləri olur. Zərnişan bunların heç birindən deyildi. Bir də insanlar arasında xeyirxahlar var, yaramazlar var, Zərnişan bunların da heç birindən deyildi. Və adətən, tez partlayıb, tez sönməyi bacaranlar, tamam yaramazlar kimi qəbul olunmayıb insanlar arasında. Belə adamlar çox da qorxulu olmurlar. Zəri beləlırindəndi. Amma tərbiyə! Amma xudpəsəndlik! Məhv etmişdi onu bu iki məfhum və bəzi hərislik!

Yox, Zəri yaman susmuşdu. Bu susmaq Paşanın keyfini korlamışdı.

– Hə, bəlkə, yazığın gəlməyə başladı Məryəmə? Nə ağzuva su alıb durmusan? Heç olmasa al bu bıçağı, doğra altundakı o nuh əyyamından qalma palazı. Yazıqsan, doğram-doğram elə ki, qoy hirsün çıxsın. Belənçiyə bu da azdı, – deyib Zərini ayağa durğuzdu, palazı yığmalayıb Zərnişanın keyəlmiş qucağına verdi və əlindəki cib bıçağını ona uzatdı.

Hikkəli Zərnişana bilərəkdən bıçaq uzadan Paşanın "planları" bambaşqa imiş.

– Hə, nə durmusan, gör sənin başuva nələr gətirib bu qız! Qorxursan bəyəm ondan? Durmuşam dalında dağ kimi. Mən sənin yerində olsayddım, lap onu öld…

Paşanın yerdən yığmalayıb arvadının qucağına verdiyi palazı Zəri hələ də qolları arasında bərk-bərk tutmuşdu. Niyə, nə üçün bu palazla birlikdə donub qalmışdı, özünün də xəbəri yox idi.

– Zəri! Bəlkə, başuva hava-zad gəlib? Nə durmusan?! – deyən Paşa arvadını bərk dümsüklədi.

Evin bir küncündə toxtayıb dayanmış Zəri sanki dərin yuxuda idi, indi birdən ayıldı, bayaqdan bəri gözlərini möhkəm zillədiyi sol divara tərəf yeridi. Gəlib həmən o sol divarla lap üzbəüz durdu. Burdan asılan ağ, qırmızı və çəhrayı rənglər qarışığından ibarət boyalı bir şəklin önündə dayandı. Xeyli dayandı. Udqundu. Hər iki qolları arasında yumurlayıb tutduğu palaz qeyri-ixtiyari yerə sürüşdü. Bir şəklə, bir Məryəmə, bir Məryəmə, bir də şəklə baxdı. Baxdı və güclə bu sözləri deyə bildi:

– Mənim anam necə də cavanmış!

Başqa heç nə deyə bilmədi. Deyə bilmədi ki, böyük itkilərdən sonra Məryəmin qapısının rəngini belə tanımayan anasının şəkli niyə Məryəmin evinin rəngli bəzəyi olmuşdu? Və bu nə ağ çarşab, bu nə çəhrayı başmaq, bu nə qırmızı rəng idi ki, bürümüşdü aləmi? Çəhrayı nələyinli, ağ çit çarşablı, qara saçları ortadan ayrılmış, iki qara hörükləri gümüş kəmərinə kimi uzanan, hüphündür, amiranə dayanmış anasının böyründən boy verib görsənən bu qırmızı kərpicli ev niyə belə bapbalacaydı? Bir də bu bapbalaca evin bu bapbalaca qırmızısı niyə o yekəlikdə ağlı-çəhrayılı anasını udmuşdu?

Bütün ömrü boyu yaddaşında həkk olunub qalan o uyğulu, nağıllı, sığallı bibisinin – Xanbikənin və o qıpqırmızı od tutub yanan, ocaq-ocaq dilimləri tüstüsüz yanan o qırmızı kərpicli evin sərgüzəştli ömrünü Məryəm özü çəkmişdi böyük məhəbbətlə, böyük ehtirasla. Və bu şəkil, bəlkə də, daimi təsəllisiydi onun evinin, daimi kədəriydi, daimi nisgiliydi ki, eləcə sükutla baxırdı.

Nəsildən yeganə bir kötük! Məryəmin ürəyi əsim-əsim əsirdi. Ona elə gəldi ki, indi hər şey alt-üst olacaq, kimsə o yeganə kötüyü kəsəcək, doğrayacaq və doğrudanmı hər şey bitəcək? Məryəm elə yazıq, elə müti göründü ki bu an. Dedi:

– Dağıdın, sökün! Nəyi istəyirsiniz, aparın! Dəyməyin ona! – Hər iki qolları geniş açılmış, şəkli hasarlamışdı. Sanki sonu yaxşı olmayan bir fəlakət gözləyirdi onu.

İxtiyarsız dayanmışdı. Divardakı şəkil birdənbirə onun üçün sanki bir həyat parçasına çevrildi. Canlandı...

...Qırmızı evin qırmızı kərpicləri arasından yağış damlaları damcıladı. Xanbikə uzun, düz və qüvvətli ayaqlarını şəklin çərçivəsindən addım-addım çıxarıb qərənfilli, mixəkli, şəbgüllü həyətə endi, toyuqları kişlədi. Qırmızı kərpicli evin böyrünə sıxılıb qərb-qərib qəribsəyən Tanrıcasının, boynu bükülüb çiyninə əyili duran Məryəminin yağışdan islanmış tellərini hamarladı. Doğma-doğma, yana-yana, acıya-acıya söylədi: "Niyə bikefsən, Məryəmim? Ölməmişəm ki! Bu qoca canım hələ səninkidir də! Bu bomboş evcikdə nə darıxırsan belə? Özüm hayan olaram sirrinə də, nisgilinə də! – Söylədi, yaman söylədi, yanıqlı söylədi: – Anan da olaram, atan da! Niyə ki, gözləri giryan gəzirsən? Niyə ki, tənha olursan bu böyüklükdə dünyada?!"

Bəlkə, şəkildən Məryəmin gözləri önündə açılmış bu köhnə dünyanın rənglərini, səslərini Zəri də duyurdu, eşidirdi? Bəlkə, duyurdu ki, bəlkə, eşidirdi ki, belə yumşalmışdı Zəri? Və güclə eşidiləcək səslə dedi:

– Biz də bu cürük, nənə! Pis adamlarıq! – Sonra Məryəmə sarı döndü:

– Heyf sənə! Əziz dayımın əziz-girami, nübar balası! Sən bu ev-eşikdə yaşayırmısan? Heyf, heyf sənə! – dedi. Dedi və əlləriylə üzünü qapadı.

Və həmən gecə Paşayla Zəri şəhəri tərk etdilər.

* * *

Həmin gecənin "qəfil küləyi" Məryəmi bərk sarsıtmışdı, yorğan-döşəyə salmışdı. Həkimlər gəldilər və getdilər. Dava-dərman məsləhət gördülər, ümidli sözlər dedilər.

Uzun yorğunluq və üzüntüdən sonra Məryəm bu bir neçə gündə birinci dəfə dərin yuxuya getdi.

Yuxusunda gördü ki, qaranlıq dünyanın bir küncündə müsəlman Fatimə, xristian Zoluşka və katolik Kozetta oturublar. Başlarında çələng var. Hər üçünün ad günüdür. Yuxarıda, ağacların lap üstündən meşə qumrusu öz aramsız nəğməsini həzin-həzin oxuyur. Ayaqlarının altına xədicə gülləri[26] səpələnmişdir. Əfsanəvi bir mavilik ələnir üz-gözlərinə. Büzüşdükləri küncün yaxınlığından çay axır. Lap ortada tək bircə qırmızı şam yanırdı.

Kim çalırdı bu neyi onların ad günündə? Ki, uzaqdan həzin-həzin səsi gəlirdi?..

Yuxarıdan, həmin o gecə qumrusunun oxuduğu ağacların dalından ağqanadlı, ağbədənli bir məxluq uçdu, gəldi onların yanına. Ayıra bilmədi Məryəm, bu göylərin mələikəsiydimi, ya müqəddəs həzrəti Məryəm idi?

Həmin bu məxluq ağ qanadlarının ucunda üç qızılı telli üç "dirilmə xaç" nişanını ahəngdar bir moizə oxumaqda davam edərək, bunların hər üçünün boyunlarından keçirdi, lakin Fatimənin gözlərində ilişib qaldı. Yəqin, düşündü: "Bəs Fatimə? O ki müsəlmandır? Bu xaç nişanlı bəzək onun nəyinə lazımdır? Onun ki öz inamı, öz etiqadı vardır?"

Bu məxluq, bəlkə də, ağır bir düşüncə içərisində fikirləşirdi: "Görən, nə fərqi varmış körpəcə Fatimə üçün bu din şərtiliklərinin? Ulu Tanrı ki birdir!"

Mələikə tövbə edilәsi şeylər də pıçıldadı astadan:

"Tövbə, İlahi, tövbə! Ulu Tanrı! Əgər sən vardınsa, niyə insanları bölük-bölük elədin?! Nədir bu xristian, katolik, müsəlman çəlikləri? Məgər günahsız Fatimələri, Zoluşkaları, Kozettaları bu bölüm bu təbəqə mirasları məhv etmədimi?"

Çılpaq mələikə xəyalından ayrıldı, bəyaz qanadlarını və topuğuna qədər uzanılı günəş telli saçlarını onların hər üçünün üzündə-gözündə gəzdirdi, uçdu bilinməzlərə…

Onların hər üçü ağlayırdımı, gülürdümü, seçə bilmədi Məryəm. Beləcə uyumuş-uyumuş, yuxusundan yuxarı çıxan bulud dolu, duman dolu pillələri yavaş-yavaş addımladı.

Soyuq tər içində yuxusundan ayıldı. Başının üstündə balaları pərişan-pərişan dayanmışdı. Gülümsündü üzlərinə və zəif bir üzüntüylə:

– Yaxşıyam, heç fikir çəkməyin, – dedi, – hər şey yaxşı olmalıdır.

---

[26] Xədicə gülləri - cənnət gülləri

Halı yaxşılaşmışdı. Neçə gün idi ki, dilinin altından heç nə keçmirdi. Çay istədi, yemək istədi. Düzəlib oturdu. Ürəyində nəsə bir mahnı zümzümə etdi:

*Saçın ucun hörməzlər, sarı gəlin,*
*Səni mənə verməzlər, sarı gəlin.*

Sonra səsini bir az qaldıraraq:

*Neynim sarı gəlin, aman, sarı gəlin*
*Boy-boy, sarı gəlin, aman, sarı gəlin…*

Hər iki qollarını açdı, tükənmiş gücü ilə hər iki qızcığazı köksünə sıxıb belə bir nağıl danışdı:

"Biri varmış, biri yoxmuş, bir zamanlar kor yağışlar yağarmış. Bir də bir üzü sarı, bir üzü qırmızı almalar varmış. Bu kor yağışlar yağanda həmən bu almalara baxan olsaydı, görərdilər ki, onların bir üzü gülür, bir üzü yazıq-yazıq ağlayır… Bu zamanlar çox-çox yaxşı insanlar da var imiş ki, belə günlərində bu almaların dərdlərinə şərik olarlarmış."

– Varmış, varmış, çox yaxşı adamlar varmış. İndi də çoxdur yaxşı adamlar, mənim balalarım! Hə, həmən o yaxşı adamlar yunan Diogeni, bizim Şah İsmayılı bu günə kimi yaşatdılar, ölməyə qoymadılar. Hə, hə, deməli, Şah İsmayıl adlı bir şah varmış, Diogen adlı bir filosof yaşarmış. Günlərin bir günü bir yaxşı adam bir pis adama nəql etməyə başladı:



"O boyda Diogen, dövrünün məşhur Diogeni həmişə ehtiyac içində yaşarmış, amma heç kimdən, heç nəyi dilənməzmiş. Hə, deyir, həmin bu Diogenin qalmağa damı da yoxmuş. Bir gün bu ilahi bəşəri küçə itlərinin arasında yatan görüblərmiş. Sən demə, soyuqdan ölməsin deyə, itlərin istisinə, nəfəsinə möhtacmış".

Hə, göyərçinlərim! İnsanın ən böyük faciəsi onun səviyyəcə özündən qat-qat aşağı olan adamlardan asılı vəziyyətə düşməsindədir. Görürsünüzmü, nə üçünsə, həmən bu müdrik Diogen dördayaqlılara pənah aparıb, amma pis ikiayaqlılara əyilməyib...

Bir dəfə də bazarın qırağında oturub qarpız qabıqlarını gəmirən görüblərmiş onu… Sual ediblər ki, bəs, ey Diogen, sən bu böyüklükdə alim, filosof, şair, dahisən, sənə nə layiq belə bir hərəkət etmək? Cavab verir ki, heç kimdən asılı olmamaq üçün, bütün ehtiyaclarını atmalısan.

Hə, mələklərim! Şah İsmayıl da şahdı. Amma o, insanlara nə qədər yaxındı, insanlığı vəsf edən necə gözəl şerlər yazmışdı".

Nağıl uzanırdı. Gecə uzandıqca Məryəmin arzuları da bu gecə uzunu ayaq aldıqca uzanıb gedirdi. Daha qurumuş dodaqlarını yalamırdı, daha ümidsiz gözlərini balalarına zilləməmişdi.

Yerindən qalxdı, dənizə açılan küçə eyvanına çıxdı, gecəyə tamaşa elədi.

Deməli, həyat hələ davam edir. Həyatda tamaşa etməli nə çox gözəlliklər var! Aylı-ulduzlu kəhkəşan var, dənizlər, çaylar var ki, balıqları belədən-beləyə üzür, yosunları yamyaşıl, çınqılları laylalı, ecazkar… Daha nə istəyirdi, görən, insanlar? Yaşayırlar – çörəkləri var, suları var, sevgiləri var, belə füsunkar gecələri var. Kasıb ki deyildi insanlar, kasıb ki deyildi Məryəm!

Tək-tək sönən parıltılı ulduzlar sabahın açılacağını xəbər verirdilər.

Dərindən köks ötürüb başı üstündəki bir parça səmaya baxdı. Səma çəhrayı, səma bənövşəyi, səma mavi idi, üstündə buludlar nazlana-nazlana yırğalanırdı. Buludlardan o tərəfə? Görən, buludlardan o tərəfə nələr vardı, İlahi?!

Bir şam vaxtı günbatandan günəş doğmuşdu, onların hər üçünü qızdırmışdı.

Və göydən bir üzü sarı, bir üzü qırmızı üç alma düşmüşdü…

Deyəsən…

*1979,*
*sentyabr – noyabr.*